RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 170 (8486) CÜMƏ AXŞAMI, 27 avqust 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## İlham Əliyev və Mehriban Əliyeva 99 ailəyə mənzil sevinci bəxş etdi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Bakının Xəzər rayonunun Buzovna qəsəbəsində yenidən tikilən 99 mənzildən ibarət yeddimərtəbəli yataqxana binasının açılışında iştirak ediblər.

Ardı 2-ci səh.



## Prezidentdən və birinci xanımdan Qala məktəblilərinə növbəti hədiyyə

Bakının Xəzər rayonunun Qala qəsəbəsində yeni inşa olunan 216 nömrəli tam orta məktəb binasının avqustun 26-da açılışı olub.

Ardı 2-ci səh.



## İlham Əliyev və Mehriban Əliyevadan mədəniyyətimizə mühüm töhfə

Avqustun 26-da Bakının Suraxanı rayonunda görkəmli rəssam Səttar Bəhlulzadənin adını daşıyan Mədəniyyət Evinin açılışı olub.

Ardı 2-ci səh.



## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti zati-aliləri xanım MEHRİBAN ƏLİYEVAYA

Hörmətli Mehriban Arif qızı!

Ad gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Siz Rusiyanın əsl dostu kimi ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsinə əhəmiyyətli töhfə verirsiniz. Əminəm ki, bu münasibətlər bundan sonra da Rusiya və Azərbaycan xalqlarının rifahı naminə bütün sahələrdə səmərəli inkişaf edəcək.

Hörmətli Mehriban Arif qızı, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, firavanlıq və dövləti fəaliyyətinizdə uğurlar arzulayıram. Ailənizə mənim səmimi salamlarımı çatdırmağınızı xahiş edirəm.

*Hörmətlə,*

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

❖ ❖ ❖

Çox hörmətli Mehriban Arif qızı!

Doğum gününüz münasibətilə Rusiyanın TASS informasiya agentliyi adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi qəbul edin.

Sizin səmərəli fəaliyyətiniz, mədəniyyətin, təhsilin, səhiyyənin, idmanın və digər həyat sahələrinin inkişafına qiymətli töhfəniz Azərbaycan Respublikasının firavanlığını ilbəil artırır. Sizin enerjiniz və məqsədyönlülüyünüz sayəsində Azərbaycan xalqının mədəni irsi bütün dünyaya məlumdur, Azərbaycan ilə Rusiya arasında dostluq və qarşılıqlı anlaşma isə möhkəm və etibarlıdır.

Bu əlamətdar gündə Sizə və yaxınlarınıza səmimi-qəlbdən tükənməz enerji, nikbinlik, uğurlar, xoşbəxtlik və firavanlıq arzu edirəm. Qoy, bütün arzularınız həyata keçsin, bütün təşəbbüsləriniz uğurlu olsun. Azərbaycan xalqına sülh və xoş günlər diləyirəm!

*Hörmətlə,*

***Mixail QUSMAN,***
***TASS informasiya agentliyinin baş direktorunun birinci müavini***

❖ ❖ ❖

Möhtərəm Mehriban Arif qızı!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin. Siz yüksək ictimai vəzifələr, indi isə həm də dövlət vəzifəsi tutmaqla haqlı olaraq həmvətənlərinizin dərin hörmətini və beynəlxalq aləmdə nüfuz qazanmısınız. Sizin doğma Azərbaycanın firavanlaşmasına, ölkə əhalisinin rifahının yüksəldilməsinə, onun mədəniyyətinin və ənənələrinin qorunub saxlanmasına, dünya arenasında mövqeyinin möhkəmləndirilməsinə yönəlmiş çoxşaxəli fəaliyyətiniz səmimi hörmətə layiqdir.

Bütün bunlar Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə eyni komandada Sizin layiqincə davam etdirməyinizin nəticəsidir.

Bu cür çoxşaxəli fəaliyyət üçün zəruri olan qətiyyət, möhkəm iradə və insanları öz arxasınca aparmaq bacarığı kimi keyfiyyətlərə malik olmaqla Siz qadın zərifliyinin heyranedici nümunəsi olaraq qalırsınız, xeyirxahlığınız, qayğıkeşliyiniz və məlahətinizlə həm Azərbaycanda, həm də dünyanın digər ölkələrində qadınları ruhlandırırsınız.

Rusiya Federasiyasının tərkib hissəsi olan Dağıstan üçün bizim xalqlarımız arasında mehriban qonşuluq və qardaşlıq münasibətləri xüsusi dəyər kəsb edir.

Əminəm ki, bu münasibətlər bundan sonra da inkişaf edəcək və möhkəmlənəcək, uğurlu əməkdaşlığın sarsılmaz təməli kimi qalacaqdır.

Çox hörmətli Mehriban Arif qızı, Sizə möhkəm cansağlığı, əmin-amanlıq, firavanlıq və Azərbaycan Respublikasının inkişafı naminə nəzərdə tutduğunuz bütün planların uğurla həyata keçməsini arzu edirəm.

*Hörmətlə,*

***Xızrı ŞIXSƏİDOV,***
***Rusiya Federasiyası Dağıstan Respublikası Xalq Məclisinin Sədri***

❖ ❖ ❖

Zati-aliləri, hörmətli birinci xanım!

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsində fəaliyyətiniz Sizə əhali arasında böyük hörmət, beynəlxalq arenada layiqli imic və ehtiram qazandırıb.

Sizin rəhbərlik etdiyiniz Heydər Əliyev Fondu uzun illər ərzində elm, səhiyyə, mədəniyyət və incəsənət, idman və ekologiya sahələrində həyata keçirilən bir sıra mühüm layihələr sayəsində böyük nüfuz qazanıb.

Mən Sizin şəxsinizdə Şərqin gözəl və müdrik, sosial baxımdan fəal və çox yüksək intellektə malik Azərbaycan qadınının parlaq rəmzini görürəm. Xüsusi qeyd etmək istəyirəm ki, Siz təkcə təcrübəli siyasətçi və dövlət xadimi deyil, həm də ölkənin beynəlxalq imicinin möhkəmlənməsi üçün fəal səy göstərən sədaqətli və fədakar şəxsiyyətsiniz.

Həyatınızın bu əlamətdar hadisəsi münasibətilə zati-alinizə və ailənizin bütün üzvlərinə möhkəm cansağlığı, xoşbəxtlik, sülh və firavanlıq, məsul və nəcib fəaliyyətinizdə böyük uğurlar arzu edirəm.

*Hörmət və ehtiramla,*

***Ziroat MİRZİYOYEVA,***
***Özbəkistan Respublikasının birinci xanımı***

# İlham Əliyev və Mehriban Əliyeva 99 ailəyə mənzil sevinci bəxş etdi







*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva binada yaradılan şəraitlə tanış oldular. Dövlət başçısına və birinci xanıma məlumat verildi ki, binadakı mənzillər 1, 2 və 3 otaqlıdır. Yeni yataqxana binası "Azəriqaz" QSC-nin "Bakqazmaş" zavodunun qəzalı vəziyyətdə olan beşmərtəbəli yataqxanasının yerində inşa edilib. Heydər Əliyev Fondunun nümayəndələri 2019-cu il noyabrın 11-də qəzalı vəziyyətdə olan binaya baxış keçirib və sakinlərlə görüşüblər. Həmin vaxt binanın qəzalı və yaşayış üçün təhlükəli vəziyyətdə olduğu müəyyənləşdirilib. Sakinlər dərhal kirayə mənzillərə yerləşdirilib, 2019-cu ilin dekabr ayından etibarən 8 ay ərzində inşaat işləri aparılıb. Heydər Əliyev Fondunun layihəsi çərçivəsində tikilən binadakı mənzillər tam təmirlidir və zəruri avadanlıqla təchiz olunub.

Sakinlər onlar üçün yaradılan yüksək şəraitə görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

# Prezidentdən və birinci xanımdan Qala məktəblilərinə növbəti hədiyyə









*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər. Dövlət başçısı və birinci xanım yeni təhsil ocağında yaradılan şəraitlə tanış oldular.

Məlumat verildi ki, 216 nömrəli tam orta məktəb 624 şagird yerlikdir. Təhsil müəssisəsində 24 sinif otağı, kimya, biologiya, fizika laboratoriyaları, əmək otaqları, hərbi hazırlıq otağı, informatika kabineti, idman və akt zalları, kitabxana və yeməkxana fəaliyyət göstərir. Məktəbdə videomüşahidə sistemi və fiber-optik internet quraşdırılıb. Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində inşa olunan bu təhsil müəssisəsinin həyətində geniş abadlıq işləri aparılıb.

# İlham Əliyev və Mehriban Əliyevadan mədəniyyətimizə mühüm töhfə









*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlət başçısına və birinci xanıma məlumat verildi ki, 1926-cı ildə inşa edilmiş bina Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir olunub. Ümumi sahəsi 8662 kvadratmetr olan dördmərtəbəli binada rəqs ansamblı, vokal-instrumental qrup fəaliyyət göstərir. Burada 612 tamaşaçı yeri olan konsert-tamaşa zalı və universal səhnə, rəqs ansamblının və orkestrin məşq zalları, solistlər üçün məşq və qrim otaqları, multimedia mərkəzi, səsyazma studiyası, sərgi salonu, dərnək otaqları, texniki və köməkçi təyinatlı otaqlar yaradılıb.

Mədəniyyət Evinin 2 hektar həyətyanı ərazisində abadlıq işləri həyata keçirilib, açıq havada istirahət guşələri salınıb.



# İlham ƏLİYEV:

# “MDBMİ-nin rektoru olmaq böyük missiyadır”

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) rektoru Anatoli Torkunovun 70 illik yubileyi münasibətilə “MGIMO Journal”a müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**

*Azərbaycan Respublikasının Prezidenti, 1982-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunu olmuş İlham Heydər oğlu Əliyev Anatoli Vasilyeviç Torkunovun yolunu 10 il fərqlə təkrar edib. Belə ki, gələcək rektor 1972-ci ildə, Azərbaycan dövlətinin gələcək rəhbəri isə 1982-ci ildə Beynəlxalq münasibətlər fakültəsini bitirib və aspirant olub. Hər ikisi perspektivli gənc alimlər, müəllimlər olub, sonra isə onların trayektoriyaları ayrılıb. Lakin onlar həmişə bir-birini diqqət mərkəzində saxlayıb, illər keçdikdən sonra səmərəli əməkdaşlıq yaranıb, bu əməkdaşlıq 2013-cü ildə Bakıda MDBMİ məzunlarının Birinci Beynəlxalq Forumunun keçirilməsində və digər təşəbbüslərdə ifadə olunub.*








**Prezident İlham ƏLİYEV:** Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu nəinki Rusiyada, hətta dünyada dərin və möhkəm ənənələrə malik olan aparıcı ali məktəblərdən biridir. Uzun illərdir ki, bu ali məktəbə Anatoli Vasilyeviç Torkunov rəhbərlik edir. Bu ali məktəbin yüksəkixtisaslı diplomat kadrların hazırlanması üzrə nüfuzlu mərkəzlərdən biri kimi təşəkkülündə və inkişafında onun xidmətləri danılmazdır.

Anatoli Vasilyeviç bu nüfuzlu ali məktəbin müəllimindən rektoruna qədər böyük həyat yolu keçib. O, MDBMİ-nin rəhbəri vəzifəsində bu ali məktəbin ən yaxşı ənənələrini qoruyub saxlamaq və artırmaqla bərabər, dünya təhsil məkanında onun mövqelərinin möhkəmlənməsinə və rəqabət qabiliyyətinin təmin edilməsinə böyük töhfə verib. Bu gün MDBMİ çox cəhətdən onun səyləri sayəsində dünya səviyyəli brend sayılır.

Anatoli Vasilyeviç Torkunovu təkcə Rusiyada deyil, onun hüdudlarından kənarda da məşhur ictimai xadim və alim kimi tanıyırlar. Biz Anatoli Vasilyeviç ilə dəfələrlə görüşmüşük və deyə bilərəm ki, o, dərin erudisiyalı, hərtərəfli biliklərə malik insan, maraqlı yeni ideyalar yaradan peşəkardır.

Mənim həyatımın təqribən 15 ili MDBMİ ilə bağlı olub: təhsil, sonra aspirantura, müəllimlik işi. Bu, unudulmaz gənclik, formalaşma illəri idi. MDBMİ-də aldığım biliklər bu gün də fəaliyyətimdə mənə kömək edir.

Bizim ali məktəbin məzunlarının bir neçə il bundan əvvəl Bakıda Birinci Forumunun keçirilməsinin təşəbbüskarı mən olmuşam. Mən həm də MDBMİ-nin 60 illiyinə həsr olunmuş təntənəli tədbirlərdə iştirak etmişəm.

Anatoli Vasilyeviç ilə bizim həyat yollarımız çox cəhətdən oxşardır: o da, mən də bu ali məktəbi bitirmişik, aspiranturaya daxil olmuşuq, orada dərs demişik. Taleyin qismətindən mən MDBMİ-dən getməli oldum, Anatoli Vasilyeviç isə öz həyatını almamater ilə bağladı.

Çətin dövrdə MDBMİ-yə rəhbərlik etmiş Anatoli Vasilyeviç Torkunovun üzərinə onun sələfləri tərəfindən yaradılmış ən yaxşı nə varsa, hamısını qoruyub saxlamaq, bu sərvətin itirilməsinə imkan verməmək və belə bir təməl üzərində dünyanın ən yaxşı ali məktəblərindən birini, ən iri elm və təhsil mərkəzini formalaşdırmaq missiyası düşüb.

***MJ: Bu gün Siz Azərbaycan dövlətinin rəhbəri, Anatoli Vasilyeviç isə bizim almamaterin rektorudur. Onunla Sizi birləşdirən çox mühüm bir amil var - böyük missiya. Siz 1993-cü ildə ölkəni qəbul etmiş, onu qoruyub saxlamış və Azərbaycanı müasir dinamik dövlətə çevirmiş atanız, möhtərəm Heydər Əliyevin işini davam etdirdiniz. Anatoli Vasilyeviç 1993-cü ildə MDBMİ-yə rəhbərliyi öz üzərinə götürdü, onu mürəkkəb dövrün bəlalarından qorudu, bu ali məktəbin brendini bərpa etdi və möhkəmlətdi, onu nadir təhsil keyfiyyətlərinə malik olan universitetə çevirdi. Xahiş edirəm, bu barədə öz fikirlərinizi bölüşün.***

**Prezident İlham ƏLİYEV:** Bu gün ölkəmizdə Heydər Əliyevin siyasəti davam etdirilir. Bu siyasətin sayəsində Azərbaycan müstəqil dövlət kimi formalaşıb, dünya xəritəsində layiqli yer tutub, ölkədə ictimai-siyasi sabitlik bərqərar olub, genişmiqyaslı dəyişikliklər üçün möhkəm baza yaradılıb, milyardlarla xarici investisiya cəlb olunub, daxili və xarici siyasətin əsas istiqamətləri müəyyən edilib. İndi Azərbaycan bütün sahələrdə uğurla inkişaf edir.

Mən fəxr edirəm ki, Azərbaycan beynəlxalq arenada böyük nüfuz qazanıb. Bunu o da sübut edir ki, bizim ölkəmiz dünyanın 155 dövlətinin dəstəyi ilə 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib. Qoşulmama Hərəkatının üzvləri olan bütün 120 ölkənin yekdil qərarı ilə Azərbaycan BMT-dən sonra dünyada ikinci ən böyük bu beynəlxalq qurumun sədri seçilib. Ötən ilin oktyabr ayında Bakıda Qoşulmama Hərəkatının Zirvə görüşü keçirilib. Həmin ilin payızında ölkəmiz həm də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasında sədrliyi qəbul edib. Biz dünya birliyinin məsuliyyətli üzvü kimi beynəlxalq təşkilatlarda sədrlik məsələsinə formal yanaşmırıq, çalışırıq ki, bu sədrlik səmərəli olsun və üzv ölkələrə xeyir gətirsin. Məsələn, dünya koronavirus pandemiyası ilə üzləşdiyi dövrdə mənim təşəbbüsümlə Qoşulmama Hərəkatının və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşləri keçirilib. Bu görüşlərdə təhlükəli virusa qarşı mübarizə ilə bağlı məsələlər müzakirə edilib. Azərbaycan Qoşulmama Hərəkatının üzvü olan ölkələr adından BMT Baş Assambleyasının COVID-19-a həsr edilmiş xüsusi sessiyasının çağırılması təşəbbüsünü irəli sürdü. Bu təşəbbüsü 130-dan çox dövlət dəstəklədi.

Pandemiya dövründə biz beynəlxalq həmrəylik nümayiş etdirərək 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərmişik. Biz Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar könüllü ianə vermişik.

Bu gün Azərbaycan dünya multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Ölkəmiz Avropa ilə Asiya arasında həm coğrafi, həm mədəni, həm də siyasi körpüdür. Biz eyni zamanda həm Avropa Şurasının, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvü olan nadir ölkələrdən biriyik. 2008-ci ildə biz Avropa Şurasının üzvü olan ölkələrin Mədəniyyət nazirlərinin Bakıda keçirilən iclasına İslam Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin müvafiq nazirlərini dəvət etdik. Sonra 2009-cu ildə İslam Əməkdaşlıq Təşkilatının iştirakçısı olan ölkələrin Mədəniyyət nazirlərinin iclasına Avropa Şurasının üzvü olan ölkələrin Mədəniyyət nazirləri dəvət edildi. Beləliklə, bizim “Bakı Prosesi” adlı, dinlərarası və mədəniyyətlərarası dialoq prinsiplərinə əsaslanan təşəbbüsümüz yarandı. Bu illər ərzində “Bakı Prosesi” milliyyəti, mədəniyyəti, dini etiqadı müxtəlif olan insanlar arasında fikir mübadiləsi üçün səmərəli platforma imici qazanıb.

“Bakı Prosesi” BMT və dünyanın digər aparıcı təşkilatları tərəfindən dəstəklənir.

***MJ: Anatoli Vasilyeviç Beynəlxalq münasibətlər fakültəsinin dekanı, prorektor vəzifələrində işlədiyi vaxt yəqin ki, Siz müəllim kimi onunla dəfələrlə ünsiyyətdə olmusunuz. Necə deyərlər, qeyri-adi, istedadlı bir administratorun formalaşmasının şahidi olmusunuz. Bu barədə bir səciyyəvi əhvalat danışa bilərsinizmi?***

**Prezident İlham ƏLİYEV:** Bir müddət Anatoli Vasilyeviç ilə eyni kafedrada işləmişik. Buna görə də onu çoxdan tanıyıram. Diplomat, alim, rəhbər kimi yüksək peşəkar keyfiyyətlərə malik olan Anatoli Vasilyeviç həmişə çox səmimi, xeyirxah, ünsiyyətdə xoş təsir bağışlayan bir insan idi, bu gün də eləcə qalır. Bilirəm ki, kollektiv onu dəstəkləyir, tələbələr ona hörmət edir və sevirlər. Belə olmasaydı, o, bu qədər uzun müddət MDBMİ-yə rəhbərlik edə bilməzdi. Anatoli Vasilyeviçi həm də ona görə qiymətləndirirəm ki, o, qondarma yenidənqurma dövründə qara yaxılan, mənəvi terrora məruz qalan ali məktəbimizin şanlı ənənələrini bərpa edib. Təəssüf ki, mənim oxuduğum və müəllimlik etməyə başladığım dövrdə rektor olmuş, həmişə, bu gün də böyük hörmət bəslədiyim Nikolay İvanoviç Lebedevdən sonra və Anatoli Vasilyeviç Torkunova qədər bizim ali məktəbə rəhbərlik etmiş insanlar MDBMİ-ni ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəlində cərəyan edən mənfi proseslərin təsirindən qoruya bilmədilər. 1992-ci ildən bu instituta başçılıq edən Anatoli Vasilyeviç bu gün dünyanın aparıcı ali məktəblərindən biri olan MDBMİ-nin imicini bərpa etdi və möhkəmlətdi.

Səciyyəvi əhvalat məsələsinə gəldikdə isə demək istəyirəm ki, 1990-cı illərin lap əvvəlində oxuduğum, aspiranturanı bitirdiyim və 15 ilə yaxın işlədiyim institutdan getməyə məcbur oldum. Səbəb bu idi ki, SSRİ-nin ovaxtkı rəhbərliyinin yanlış daxili və xarici siyasət kursuna qarşı prinsipial mövqe tutan atam Heydər Əliyev az qala xalq düşməni hesab edilirdi. O, təqiblərə məruz qalır, sovet mətbuatında ona qarşı şəxsən Sov.İKP MK-nın baş katibi tərəfindən qızışdırılan kəskin qarayaxma və böhtan kampaniyası aparılırdı. MDBMİ-nin rəhbərliyi mənə bildirdi ki, Heydər Əliyevin oğlu siyasi səbəblər üzündən bu ali məktəbdə dərs deyə bilməz. Mənim üçün çox çətin olan həmin dövrdə Anatoli Vasilyeviç mənə həmişə mənəvi dəstək göstərirdi. Əminəm ki, əgər həmin vaxt rektor o olsaydı, mənim getməyimə yol verməzdi. Onda mənim taleyim başqa cür olardı. Lakin necə deyərlər, nə olursa, yaxşılığa doğrudur.

***MJ: Siz bizim jurnala verdiyiniz müsahibələrin birində demisiniz: “MDBMİ-nin yubileyi bizim ailənin də bayramıdır”. Yəqin onu nəzərdə tuturdunuz ki, qızınız Leyla da bizim universiteti bitirib. Anatoli Vasilyeviç də belə deyə bilər. Onun qızı Yekaterina MDBMİ-ni bitirib və bu ali məktəbin kafedralarından birində işləyir. MDBMİ-nin məzunlarının çoxu da belə deyə bilər! Sizə elə gəlmirmi ki, sözün yaxşı mənasında, bu ailə ənənələri ən mühüm dəyərlərdən biridir və onların sayəsində MDBMİ yubileydən-yubileyə daha qüdrətli və dinamik ali məktəbə çevrilir?***

**Prezident İlham ƏLİYEV:** Bizim həyat yollarımızın daha bir kəsişməsini düzgün qeyd etdiniz. Bəli, mənim qızım Leyla Əliyeva da Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirib, MDBMİ-nin Azərbaycan Klubunun prezidenti olub və Azərbaycanlı Məzunlar Şurasının sədridir. Hazırda Leyla həm də Moskvada rus dilində nəşr edilən “Baku” jurnalına rəhbərlik edir. Bu jurnal oxucuları Azərbaycan xalqının tarixi, mədəniyyəti və ənənələri ilə tanış edir. Leyla Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlığın, dostluğun və əməkdaşlığın möhkəmləndirilməsi işinə böyük töhfə verir.

Leyla Rusiya Federasiyası ilə dostluğun və əməkdaşlığın möhkəmləndirilməsinə, iqtisadi əlaqələrin inkişafına, rus dilinin və mədəniyyətinin qorunub saxlanmasına və xaricdə populyarlaşdırılmasına verdiyi töhfəyə görə 2015-ci ildə “Puşkin” ordeni ilə təltif edilib. Yüksək mükafatı ona şəxsən Vladimir Vladimiroviç Putin təqdim edib.

Leylanın vitse-prezident olduğu Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə 2013-cü ildə Həştərxanda Müqəddəs Mələksima knyaz Vladimirə abidə qoyulub. Heydər Əliyev Fondu tərəfindən Rusiyanın bu regionunda reallaşdırılmış layihələrə görə Leyla “Həştərxan vilayəti qarşısında xidmətlərinə görə” ordeni ilə təltif edilib. Elə həmin 2013-cü ildə Moskvanın və bütün Rusiyanın patriarxı Kirillin sərəncamı ilə Leyla III dərəcəli “Müqəddəs Mələksima knyaginya Olqa” ordeninə layiq görülüb.

Bilirəm ki, Anatoli Vasilyeviç Torkunovun qızı Yekaterina da bu ali məktəbi bitirib və siz dediyiniz kimi, hazırda MDBMİ-nin kafedralarından birində işləyir. Yəqin MDBMİ tarixində belə nümunələr az deyil ki, uşaqlar qəlblərinin istəyi ilə vaxtilə onların valideynlərinin bitirdiyi ali məktəbi seçirlər. Hesab edirəm ki, belə varisliyin olması çox gözəldir.

***MJ: Anatoli Vasilyeviçin 70 yaşı tamam olur, MDBMİ-nin isə 75 yaşı yaxın vaxtlarda tamam olub. Bununla əlaqədar bizim ümumi böyük yubiley kontekstində ona nə arzu edərdiniz?***

**Prezident İlham ƏLİYEV:** Mən ona möhkəm cansağlığı, bütün işlərində və təşəbbüslərində uğurlar, tükənməz enerji, ailə xoşbəxtliyi arzu etmək istərdim. Bu yaxınlarda 75 illiyini qeyd etmiş MDBMİ-yə isə yeni nailiyyətlər diləyirəm. İnanıram ki, MDBMİ Anatoli Vasilyeviçin rəhbərliyi ilə tanınmış fundamental təhsil mərkəzi və dünya səviyyəli diplomatik kadrların yetişdirildiyi ali məktəb kimi qalacaq.

## Moldova Respublikasının Prezidenti zati-aliləri cənab İqor Dodona

Hörmətli cənab Prezident!

Moldova Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Bizim ölkələrimizi sıx dostluq və əməkdaşlıq telləri bağlayır. Əminəm ki, Azərbaycan ilə Moldova arasında bu xeyirxah ənənələrə əsaslanan münasibətlər xalqlarımızın və ölkələrimizin rifahı naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcək.

Fürsətdən istifadə edərək bildirirəm ki, koronavirus pandemiyasının nəticələrinin aradan qaldırılmasında Azərbaycan xalqı Moldova xalqı ilə həmrəydir.

Sizə möhkəm cansağlığı və uğurlar, dost Moldova xalqına isə tərəqqi və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı, 24 avqust 2020-ci il*

## Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2002-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1985-2001-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2020-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2020-ci il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 avqust 2020-ci il*

## Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının növbəti iclası keçirilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 17 mart tarixli sərəncamı ilə yaradılmış Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının videokonfrans formatında növbəti iclası keçirilib.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, iclasda Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı” çərçivəsində bu ilin ilk yarısında görülən işlər, əldə edilən nəticələr və qarşıda duran vəzifələr müzakirə edilib.

Baş Nazirin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədov bu ilin ilk yarısında qeyri-formal məşğulluq sahəsində görülmüş işlər və əldə edilən uğurlar barədə ətraflı məlumat verib. Komissiyanın sədri son illər dövlət tərəfindən əmək münasibətləri iştirakçılarının hüquq bərabərliyinin təmin edilməsi, qanuni mənafelərinin qorunması, əmək müqaviləsi üzrə öhdəliklərinin icrasına hüquqi təminatın yaradılması sahəsində sistemli və məqsədyönlü tədbirlər həyata keçirildiyini qeyd edib. Görülən məqsədyönlü tədbirlərin vətəndaşların əmək hüquqlarının qorunması, işçilərin maddi, sosial tələbatlarının ödənilməsi və layiqli həyat səviyyələrinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasına səbəb olduğu vurğulanıb.

İclasda Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini, Qanunvericilik və idarəetmə üzrə işçi qrupunun rəhbəri Anar Əliyevin “Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı” çərçivəsində hazırlanmış və razılaşdırılması başa çatdırılmamış qanunvericilik layihələri barədə məruzəsi dinlənilib.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev komissiyanın tapşırığına uyğun olaraq tikinti sahəsində qeyri-formal məşğulluq hallarının azaldılması ilə bağlı aidiyyəti qurumlarla birgə hazırlanan təkliflərlə əlaqədar çıxış edib.

Müzakirələrdə İqtisadiyyat naziri Mikayıl Cabbarov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev, Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev çıxış edərək müzakirə olunan məsələlərə dair münasibət bildiriblər.

Eyni zamanda “Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı”nın icrası ilə əlaqədar dövlət başçısına təqdim ediləcək hesabatın layihəsi müzakirə edilərək qəbul olunub.

İclasın sonunda komissiyanın sədri Əli Əhmədov qarşıda duran vəzifələrlə bağlı, o cümlədən ölkədə qeyri-formal məşğulluğun qarşısının alınmasına, bu sahədə qanunvericilik aktlarının təkmilləşdirilməsinə, əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşdırılmasına və iqtisadi fəallığın yüksəldilməsinə yönəlmiş tədbirlərin daha da gücləndirilməsinə dair müvafiq tapşırıqlar verib.

# Hakimiyyətlə QHT-lər arasında yeni dialoq başladı

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ölkənin bir çox fəal qeyri-hökumət təşkilatları rəhbərlərinin daxil olduğu "İctimai Liderlər Platforması"nın üzvləri ilə onlayn görüş keçirib.**



Bu barədə AZƏRTAC-a Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının İctimaiyyətlə əlaqələr bölməsindən məlumat verilib.

Görüşü giriş sözü ilə açan Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev Prezidentin köməkçisi Hikmət Hacıyevə QHT-lərlə görüşdüyünə görə təşəkkür edib və bu təşəbbüsün QHT-hökumət münasibətlərində yeni keyfiyyət mərhələsinin başlanğıcı olacağına və QHT sektoru üçün prioritet məsələlərin həllinə təkan verəcəyinə əminliyini ifadə edib.

Prezidentin köməkçisi Hikmət Hacıyev dövlət başçısı İlham Əliyevin cəmiyyətimizdə QHT-lərin fəaliyyətinə və ictimai nəzarət mexanizmlərinin gücləndirilməsinə xüsusi önəm verdiyini qeyd edib. O, QHT sektorunun ölkəmizin ictimai həyatında fəal iştirakını vurğulayıb, hökumətin QHT-lərlə dialoqun genişlənməsində və QHT-lərin diqqətində olan məsələlərin müzakirəsində maraqlı olduğunu bildirib. Hikmət Hacıyev vətəndaş cəmiyyəti institutlarının ölkəmizin dayanıqlı sosial-iqtisadi inkişafı, vətənpərvərliyin gücləndirilməsi, milli maraqlarımızın qorunması, həmçinin təhsil, humanitar və ictimai əhəmiyyət daşıyan digər sahələrdə mühüm roluna toxunub, dövlət başçısının qeyd etdiyi kimi, ictimai nəzarət mexanizmlərinin və onun tətbiqinin səmərəliliyinin artırılmasının zəruriliyini diqqətə çatdırıb.

Görüşdə çıxış edən Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni, Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun prezidenti Sabit Bağırov, Müstəqil Hüquq Mərkəzinin sədri Aydın Kərimov, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev, Konstitusiya Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədov, D.Əliyeva adına Azərbaycan Qadınlarının Hüququnun Müdafiə Cəmiyyətinin sədri Novella Cəfərova, Humanitar Tədqiqatlar İctimai Birliyinin sədri Əvəz Həsənov, İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi İctimai Birliyinin sədri Səltənət Qocamanlı, "Biosfer" İctimai Birliyinin sədri Qorxmaz İbrahimli, "Azad İstehlakçılar" İctimai Birliyinin sədri Eyyub Hüseynov, "Ümid" Sosial İnkişafa Dəstək İctimai Birliyinin sədri İsrayıl İsgəndərov, Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatı İctimai Birliyinin sədri Mirvari Qəhrəmanova, Azəri-Türk Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı, Hüquq və İnkişaf İctimai Birliyinin sədri Hafiz Həsənov, Multimediya Sistemləri İctimai Birliyinin sədri Osman Gündüz, "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyinin sədri İradə Rizazadə, Təmiz Dünya Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova, XXI əsr Təhsil Mərkəzi İctimai Birliyinin sədri Etibar Əliyev, "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyinin sədri Əhməd Abbasbəyli, "Azərbaycan Valideyn-Müəllim Assosiasiyası" İctimai Birliyinin sədri Şahin Rəcəbov, "Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsi" İctimai Birliyinin sədri Səadət Bənənyarlı, Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyəti İctimai Birliyinin sədri İlqar Orucov və Azərbaycan Demokratik Tələbə Gənclər Təşkilatının sədri Asif Əsgərli hökumətlə QHT sektoru arasında başlanan yeni dialoq təşəbbüsünü təqdir etdiklərini bildiriblər. QHT sədrləri ictimai sektorun gücləndirilməsi və QHT-lərin gündəliyində olan məsələlərin həlli ilə bağlı fikir və təkliflərini səsləndiriblər.





Görüşün sonunda çıxış edən Prezidentin köməkçisi Hikmət Hacıyev QHT-lər tərəfindən səsləndirilən əsaslandırılmış fikir və təkliflərin diqqətlə araşdırılacağını və onların həlli istiqamətində müvafiq addımların atılacağını bildirib.

Qeyd edək ki, Prezidentin köməkçisi Hikmət Hacıyevin QHT-lərlə görüşü davam edəcək.

# Moskvada Azərbaycan və Rusiya Xarici İşlər nazirlərinin görüşü olub

Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində avqustun 26-da Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, nazirlərin təkbətək görüşündən sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniştərkibli görüş baş tutub.

Tərəflər ikitərəfli gündəlikdə duran bir çox sahələrdə, o cümlədən siyasi, iqtisadi, ticarət, humanitar, mədəniyyət, təhsil və digər sahələrdə əməkdaşlıq münasibətlərinin inkişafı perspektivlərini müzakirə ediblər. Hər iki ölkənin rəhbərləri arasında mövcud olan sıx təmasların və həyata keçirilən qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin inkişafına böyük töhfə verdiyi qeyd olunub.

Ölkələr arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə inkişafına dair həyata keçirilən qarşılıqlı fəaliyyət üzrə yol xəritələrinin əhəmiyyəti qeyd olunub, habelə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın ötən ilin noyabr ayında Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində irəli sürülmüş innovasiya sahəsində yeni yol xəritəsinin tezliklə təsdiqlənəcəyinə dair ümid ifadə olunub.



Ticari-iqtisadi münasibətlərin inkişafı və regional əməkdaşlığın möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyətə malik olan "Şimal-Cənub nəqliyyat dəhlizi"nin tam istifadəyə verilməsinə dəstək ifadə edilib. Həmçinin Samur çayı üzərində tikilmiş yeni sərhəd körpüsünün istifadəyə verilməsinin qarşılıqlı ticarətə və insanlar arası təmaslara yeni təkan verəcəyi qeyd olunub. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı dəstək məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Tərəflər BMT, ATƏT, Müstəqil Dövlətlər Birliyi, Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığın möhkəmləndirilməsinə dair razılıq ifadə ediblər. Baş Assambleyanın COVID-19 pandemiyası ilə mübarizəyə həsr olunan xüsusi sessiyasının çağırılması təşəbbüsünün Rusiya tərəfindən dəstəklənməsi məmnunluqla qeyd olunub.

Nazirlər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə fikir mübadiləsi aparıblar. Nazir Ceyhun Bayramov Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində törədilən son hərbi təxribata toxunaraq, bu insidentin, eləcə də Ermənistan rəhbərliyinin bölgədə gərginliyin artmasına xidmət edən bəyanatlarının münaqişənin danışıqlar yolu ilə həllinə əngəl törətdiyini qeyd edib. BMT Təhlükəsizlik Şurasının münaqişənin həlli ilə bağlı qətnamələrinin tələblərinə uyğun olaraq, mahiyyət üzrə danışıqların aparılmasının vacibliyi vurğulanıb. Öz növbəsində, Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov münaqişənin həlli üzrə danışıqların davam etdirilməsinin əhəmiyyətini qeyd edib.

Hazırkı qlobal vəziyyətə toxunan nazirlər pandemiya ilə mübarizə çərçivəsində beynəlxalq əməkdaşlığın önəmini ifadə ediblər. Nazir Ceyhun Bayramov Rusiya mütəxəssislərinin ölkəmizə göndərilməsi də daxil olmaqla, Rusiya tərəfindən Azərbaycana göstərilən yardımı məmnunluqla qeyd edib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# *Ceyhun BAYRAMOV:* "Danışıqlar konkret məsələlər ətrafında aparılmalı, imitasiya xarakteri daşımamalı, substantiv olmalıdır"

"Ermənistanın işğal etdiyi əzəli Azərbaycan torpaqlarından Azərbaycan əhalisi qovulub, onların evlərində xaricdən, o cümlədən Yaxın Şərqdən köçürülən ermənilər yerləşdirilir".

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov rusiyalı həmkarı Sergey Lavrov ilə görüşdən sonra keçirilən mətbuat konfransında söyləyib. O vurğulayıb ki, bu, beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasıdır. Danışıqlar prosesinin imitasiya xarakteri daşımamasının, məhsuldar şəkildə aparılmasının vacibliyini qeyd edən azərbaycanlı nazir deyib: "Biz hesab edirik ki, kifayət qədər ciddi normativ baza mövcuddur və danışıqlar prosesi beynəlxalq təşkilatların qəbul etdikləri sənədlər, ilk növbədə, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi və digər təşkilatların sonrakı illər qəbul etdikləri sənədlər əsasında aparılmalıdır. Bu baxımdan, biz danışıqlar prosesinin davam etdirilməsinin tərəfdarıyıq, lakin hesab edirik ki, danışıqlar olduqca konkret məsələlər ətrafında aparılmalı, imitasiya xarakteri daşımamalı, substantiv olmalıdır".



Ceyhun Bayramov qeyd edib ki, danışıqlar prosesinin pozulmasına yönəldilən bütün hərəkətlər və bəyanatlar beynəlxalq birlik, ilk növbədə, ATƏT-in Minsk qrupu tərəfindən qınanmalıdır. Azərbaycanın danışıqlar prosesindəki konstruktiv mövqeyi real fəaliyyətə söykənir. Ərazilərinin 20 faizinin işğal altında olmasına baxmayaraq, Azərbaycan 30 ilə yaxındır ki, danışıqlar masası arxasındadır. Biz münaqişənin siyasi yolla həllinə tərəfdarıq.

Nazir Sergey Lavrov Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsinin, pandemiyaya baxmayaraq, cari ilin ilk aylarında artdığını söyləyib. O, regionlar arasında əlaqələrin əməkdaşlığa əsaslı töhfə verdiyini, xüsusilə Həştərxan vilayəti ilə Azərbaycan arasında əlaqələrin möhkəmlənməsi üçün təkliflərin irəli sürüldüyünü vurğulayıb.

Rusiya XİN-in başçısı növbəti Rusiya-Azərbaycan Regionlararası Forumunun bu ilin sonlarında Azərbaycanda keçiriləcəyini, epidemioloji vəziyyətdən asılı olaraq Rusiyada Azərbaycan Mədəniyyəti Günlərinin tarixinin müəyyən ediləcəyini də vurğulayıb.

# Heydər Əliyev Fondunun dəstəyi ilə eşitmə qüsurlu şəxslər üzərində koxlear implantasiya əməliyyatlarına başlanılıb

Heydər Əliyev Fondunun dəstəyi ilə bir qrup eşitmə qüsuru olan şəxs üzərində koxlear implantasiya əməliyyatının aparılmasına başlanılıb.

Fonddan AZƏRTAC-a bildiriblər ki, layihə, ümumilikdə, 90 nəfərədək şəxsi əhatə edəcək. Anadangəlmə və qazanılmış eşitmə qüsurlu bu şəxslər əksəriyyəti uşaqlar olmaqla müxtəlif yaş kateqoriyalarındadır.

Qeyd edək ki, koxlear implant mürəkkəb tibbi elektron qurğudur, anadangəlmə və qazanılmış eşitmə qüsuru olan şəxslərə tətbiq edilir. İlkin olaraq eşitmə qüsurlu şəxslər müayinədən keçirilir və onların koxlear implantasiya əməliyyatına uyğunluğu müəyyən edilir, sonrakı mərhələdə isə cərrahi əməliyyat və reabilitasiya dövrü başlayır.

Əməliyyat zamanı daxili qulağa xüsusi elektrodları olan tibbi cihaz - koxlear implant yerləşdirilir. Qulağın xarici hissəsinə isə səslərin elektrik impulslara çevrilməsini təmin edən mikroprosessor və ötürücü qoşulur. Daxili qulağın ilbizindəki eşitmə sinirinin liflərinin elektrik impulslarla stimullaşdırılması baş-beyin strukturlarına səsləri tanımağa imkan verir. Əməliyyatdan sonra pasiyentlərdə eşitmə qabiliyyəti yaranır, tam eşitmə və danışma qüsurlu şəxslər normal həyat tərzinə qayıda bilirlər.

Mütəxəssislər anadangəlmə eşitmə qüsurlu şəxslərdə əməliyyatın erkən yaşlarda aparılmasının daha səmərəli olduğunu qeyd edirlər.

Xatırladaq ki, 2015-ci ildə Heydər Əliyev Fondu "Koxlear implantasiya" proqramını həyata keçirib. Sonrakı dövrdə Fondun dəstəyi ilə koxlear implantasiya əməliyyatları davam etdirilib.

# *Azərbaycan XİN rəhbəri:* "Münaqişə zonasında gərginliyin qalmasının əsas səbəbi Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının davam etməsidir"

Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov Moskvaya səfəri ərəfəsində Rusiyanın TASS agentliyinə müsahibə verib.

AZƏRTAC xəbər verir ki, nazirin sözlərinə görə, Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrov ilə onun danışıqlarının əsas mövzularından biri rəsmi Bakının Dağlıq Qarabağda münaqişənin nizamlanması perspektivləri barədə mövqeyi məsələsi olacaq. Danışıqlarda, həmçinin Rusiya ilə ali səviyyədə əlaqələr, Ermənistana hərbi yüklər göndərilməsi, habelə koronavirusa qarşı mübarizə məqsədilə Rusiya Federasiyasında yaradılmış vaksini Bakının nə vaxt almağa hazır olacağı barədə müzakirələr aparılacaq.

C.Bayramov qeyd edib ki, Rusiya ilə əlaqələrin inkişafı Azərbaycanın xarici siyasətində mühüm yer tutur. İki ölkə arasında dostluq münasibətləri çoxillik dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanır. Azərbaycan XİN rəhbərinin sözlərinə görə, onun Moskvaya səfəri çərçivəsində Rusiya-Azərbaycan ikitərəfli münasibətləri, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizamlanması, o cümlədən Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində Ermənistan tərəfindən bu yaxınlarda törədilmiş hərbi təxribat məsələsi müzakirə ediləcək.

Səfər müddətində RF hökumətində və Federasiya Şurasında görüşlər nəzərdə tutulur. Bu görüşlərdə iki ölkə arasında ticari-iqtisadi və mədəni-humanitar sahələrdə əməkdaşlığın indiki vəziyyəti və perspektivləri, parlamentlərarası əlaqələrin inkişafı məsələləri diqqət mərkəzində olacaq.

Azərbaycan xarici siyasət idarəsinin rəhbəri Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə BMT-nin xüsusi sessiyasından Qoşulmama Hərəkatının indiki lideri olan Azərbaycanın gözləntiləri barədə sualın cavabında bildirib ki, Qoşulmama Hərəkatında sədrlik edən Azərbaycanın təşəbbüsü ilə koronavirus pandemiyasına qarşı mübarizə üzrə əlaqə qrupu yaradılıb. Bu il mayın 4-də həmin qrup çərçivəsində dövlət və hökumət başçıları səviyyəsində onlayn görüş keçirilib. Görüşün yekunlarına əsasən Azərbaycan Prezidenti İlham Əliyev bu hərəkatın üzvləri olan bütün dövlətlər adından BMT Baş Assambleyasının pandemiyaya qarşı mübarizədə çoxtərəfli əməkdaşlığın və həmrəyliyin möhkəmləndirilməsi mövzusuna həsr edilmiş xüsusi sessiyasının çağırılması təşəbbüsü ilə çıxış edib. Bu təşəbbüs BMT üzvləri olan dövlətlərin əksəriyyəti tərəfindən dəstəklənib. BMT-nin Baş katibi iyulun 10-dan etibarən həmin sessiyanın çağırılmasını elan edib. Hazırda xüsusi sessiyanın modallığı şərtləri üzərində iş aparılır. Nazir deyib: "Hesab edirik ki, bu məsələyə Baş Assambleyanın xüsusi sessiyası çərçivəsində baxılması yeni qlobal böhrana qarşı mübarizədə həmrəy yanaşmanın hazırlanması üzrə təcrübə mübadiləsi, donor resurslarından səmərəli istifadə edilməsi və fəaliyyətin əlaqələndirilməsi üçün optimal imkan verəcək. Xüsusi sessiya çərçivəsində plenar iclasla yanaşı, ekspertlərin iştirakı ilə panel diskussiyalarının da keçirilməsi planlaşdırılır. Bu diskussiyaların yekunları pandemiyanın fəsadlarının, o cümlədən onun sosial-iqtisadi sahədə nəticələrinin aradan qaldırılmasına dair konkret tövsiyələr hazırlanmasına töhfə verəcək".

Azərbaycanın Xarici İşlər naziri TASS agentliyinə müsahibəsində 12 iyul hadisələri ilə əlaqədar Azərbaycan-Ermənistan sərhədində vəziyyət barədə də məlumat verib. C.Bayramov vurğulayıb ki, Azərbaycan Ermənistan silahlı qüvvələri tərəfindən növbəti dəfə hərbi hücuma məruz qalıb. O deyib: "Erməni tərəfin bu təxribatı təsadüfi hərbi toqquşma deyil. Biz sərhədin Tovuz istiqamətində hücumu Ermənistan tərəfindən Azərbaycan Respublikasına qarşı növbəti təcavüz aktı hesab edirik. Ermənistanın məqsədi Azərbaycanın yeni ərazilərini işğal etməkdir. Bu hərbi hücum Ermənistan tərəfindən yeni hərbi strategiya əsasında əvvəlcədən planlaşdırılmışdı. Ermənistan Müdafiə nazirinin bəyanatına görə həmin strategiyada "əlverişli təhlükəsizlik vəziyyəti yaratmaq məqsədilə qabaqlayıcı zərbələr vurulması" və "yeni ərazilər uğrunda yeni müharibə" nəzərdə tutur. Ermənistan bu təcavüzkar hərbi doktrina əsasında hərəkət edərək özünün hərbi və siyasi hesablamalarını əsas götürərək bu hücumu törədib. Ermənistan sərhədin Tovuz sahəsini qəfil hücum üçün ən münasib yer hesab edib. Atəşlərin miqyası və intensivliyi göstərir ki, erməni tərəfi bu hücumu əvvəlcədən planlaşdırıb və fəal hərbi əməliyyatlar zonasına daxil olmayan bu hissədə xeyli silah və sursat cəmləşdirib. Azərbaycanın sərhədyanı ərazilərinin və orada yerləşən mülki obyektlərin intensiv artilleriya atəşlərinə tutulmasının məqsədi dinc əhali arasında vahimə yaratmaq və insanları öz evlərini tərk etməyə məcbur etmək idi. Hücum Azərbaycanın elə bir regionu istiqamətində törədilib ki, orada iri enerji və nəqliyyat infrastrukturu obyektləri yerləşir. Təbii ki, Ermənistanda pandemiya şəraitində gərginləşən daxili siyasi, sosial və iqtisadi problemlər hərbi hücumun vaxtının seçilməsinə təsir göstərib".

Nazir xatırladıb ki, Azərbaycan silahlı qüvvələri hücumu dəf edib və öz mövqelərini qoruyub. Hərbi baxımdan vəziyyət gərgin olaraq qalır. Ermənistan Azərbaycan mövqelərini atəşə tutmaqda davam edir.

C.Bayramov bildirib: "Gələcəkdə bu cür toqquşmaların qarşısını almaq məsələsinə gəldikdə burada münaqişənin ilkin səbəblərinə diqqət yetirmək lazımdır. Səbəb Ermənistanın Azərbaycana qarşı təcavüzünün və Azərbaycan ərazilərinin işğalının davam etməsidir. Buna görə də bizim fikrimizcə, regionda sabitliyin və təhlükəsizliyin təmin edilməsi, gələcəkdə oxşar provokasiyaların təkrarlanmasının qarşısının alınması üçün BMT Təhlükəsizlik Şurasının iddia müddəti olmayan və münaqişənin nizamlanmasının əsasını təşkil edən 4 qətnaməsində tələb olunduğu kimi işğalçı qoşunlar Azərbaycanın işğal edilmiş bütün ərazilərindən dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmalıdır. Bu baxımdan biz hesab edirik ki, beynəlxalq birlik, ilk növbədə, ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələr Ermənistanı status kvonun saxlanması siyasətindən əl çəkməyə və substantiv danışıqlara başlamağa məcbur etməlidir. Bu danışıqların çərçivəsi BMT Təhlükəsizlik Şurasının yuxarıda qeyd edilən qətnamələri və ATƏT-in qərarları ilə, ilk növbədə, 1994-cü il Budapeşt sammitinin sənədləri ilə müəyyən edilib. Sənədlərə əsasən həmsədr ölkələr silahlı münaqişənin dayandırılması barədə tezliklə saziş bağlanması vəzifəsini qoyur. Bu sazişin icrası silahlı münaqişənin nəticələrini aradan qaldıracaq və siyasi məsələlərin həlli üçün şərait yaradacaq.

Azərbaycan XİN rəhbərinin fikrincə, münaqişə zonasında gərginliyin saxlanmasının əsas səbəbi Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının davam etməsidir. Nazir deyib: "Deməli, işğalın özünü aradan qaldırmaq, yəni Ermənistan silahlı qüvvələrini Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarmaq lazımdır. Danışıqların predmeti məhz işğalçı qüvvələrin çıxarılması qrafikinin razılaşdırılmasından ibarət olmalıdır. Biz monitorinq məsələsinə qoşunların çıxarılması və doğma yerlərindən qovulmuş əhalinin geri qaytarılması kontekstində baxırıq. Bu istiqamətdə sonrakı fəaliyyət ərazilərin azad edilməsi ilə sinxronlaşdırılmalıdır".

C.Bayramov xatırladıb ki, Minsk qrupunun həmsədrləri bu ilin payızında Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında görüş təşkil etmək istəyirlər, lakin Ermənistanın hərəkətləri vasitəçilərin səylərini faktiki olaraq heçə endirir. Azərbaycanın Dağlıq Qarabağ regionunda və işğal edilmiş digər ərazilərində münaqişənin nizamlanması prosesinin Ermənistan tərəfindən pozulması təkcə iyulun 12-də baş vermiş hərbi hücumla məhdudlaşmır. Ermənistan rəhbərliyi müharibənin nəticələrinin təsbit edilməsinin zəruri olduğunu bəyan etməklə, ərazilərin azad olunması imkanını istisna etməklə, Azərbaycanın yaşayış məntəqələrinə zərbələr endirilməsi barədə təhdidlərlə, işğal olunmuş ərazilərin qeyri-qanuni məskunlaşdırılması siyasətini davam etdirməklə və beləliklə həmin ərazilərdə demoqrafik vəziyyəti dəyişdirməklə danışıqların bərpa olunması şanslarını heçə endirir. Ermənistan tərəfinin aqressiv bəyanatlarının və təhrikçi addımlarının siyahısını davam etdirmək olar. Belə şəraitdə xarici işlər nazirlərinin görüşünün tarixi barədə danışmaq tez olardı. Biz ATƏT-in Minsk qrupunun həmsədrlərindən Ermənistan tərəfin Azərbaycanın işğal edilmiş ərazilərinin azad olunması üzrə substantiv danışıqlar aparılmasına və BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 4 qətnaməsində və ATƏT-in 1994-cü il Budapeşt sammitinin qərarında nəzərdə tutulduğu kimi silahlı münaqişənin digər nəticələrinin aradan qaldırılmasına hazır olmasına zəmanət verilməsini gözləyirik. Belə razılaşmaların reallaşdırılması gələcəkdə siyasi məsələlərin müzakirəsinə başlamağa imkan verəcək.

Nazir xatırladıb ki, Ermənistana hərbi yüklər göndərilməsi barədə xəbərlər, xüsusən Azərbaycanın dövlət sərhədinin Tovuz istiqamətində təcavüzkar Ermənistanın silahlı hücumlarının fəallaşması fonunda Azərbaycan ictimaiyyətinin ciddi narahatlığına səbəb olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yaxın vaxtlarda Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə strateji tərəfdaşlıq, etimada əsaslanan dialoq və iki prezidentin qarşılıqlı hörməti ruhunda telefon söhbəti zamanı bu məsələni qaldırıb. Ermənistan rəhbərliyinin aqressiv ritorikası və silahlı provokasiyaların intensivliyinin artması fonunda Ermənistan tərəfə silahlar göndərilməsi gərginliyin eskalasiyası riski yaradır, münaqişənin dinc yolla nizamlanması prosesini zəiflədir və bütövlükdə Azərbaycanın təhlükəsizliyinə təhdid yaradır.

Azərbaycan XİN rəhbəri TASS agentliyinə müsahibəsində koronavirusa qarşı vaksinin alınması və təhsil sahəsində əməkdaşlıq məsələlərinə də toxunub.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyəti dünya mətbuatında

Birləşmiş Ərəb Əmirliklərinin mətbuatı Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva haqqında məqalələr dərc edib.

AZƏRTAC xəbər verir ki, nüfuzlu "Gulf News" nəşrində dərc edilən "Azərbaycan xalqı naminə fəaliyyət" sərlövhəli məqalədə qeyd olunur ki, müasir müstəqil Azərbaycanın inkişafına xidmət etmək, sosial məsələlərin həlli, şəfqət və mənəviyyat ideyalarına sədaqət, yardıma möhtac olanların dadına yetmək Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın həyat fəlsəfəsinin əsasını təşkil edir. O, Prezident İlham Əliyevlə çiyin-çiyinə ölkənin dinamik inkişafına böyük töhfə verir.

Məqalədə Mehriban Əliyevanın 16 il müddətində Heydər Əliyev Fondunun prezidenti kimi səmərəli fəaliyyətindən, beynəlxalq humanitar təşkilatlar olan UNESKO və ICESCO-nun xoşməramlı səfiri kimi dünya mədəni irsinin qorunması, Azərbaycanın beynəlxalq miqyasda tanıdılması işinə verdiyi misilsiz töhfədən bəhs edilir. Qeyd olunur ki, məhz onun səyləri nəticəsində 2019-cu ilin iyulunda UNESKO Dünya İrs Komitəsinin 43-cü sessiyası Azərbaycanda keçirilib.

"Gulf News" yazır ki, Mehriban Əliyeva Birinci vitse-prezident vəzifəsində əsas diqqəti sosial məsələlərə, əhalinin aztəminatlı təbəqəsinin problemlərinin həllinə yönəldib. Qısa müddətdə 300 mindən çox qaçqın və məcburi köçkünün həyat şəraiti yaxşılaşdırılıb, bir il ərzində 5293 məcburi köçkün ailəsi yeni mənzillərə köçürülüb. Bundan başqa, Aprel döyüşlərində yaralanan əsgər və zabitlərin müalicəsi təşkil edilib.

Məqalədə Mehriban Əliyevanın rəhbərliyi ilə COVID-19 pandemiyasına qarşı mübarizə tədbirləri, Heydər Əliyev Fondunun dəstəyi ilə modul tipli xəstəxanaların istifadəyə verilməsindən də bəhs olunur.

Azərbaycanın Birinci vitse-prezidentinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması sahəsində də müstəsna xidmətlərindən bəhs edən "Gulf News", eyni zamanda, Heydər Əliyev Fondunun təşəbbüsü ilə müxtəlif ölkələrdə təşkil edilən tədbirləri də diqqətə çatdırır.

Məqalədə Azərbaycanın Birinci vitse-prezidentinin idmanın inkişafı sahəsində gördüyü işlərdən də bəhs edilir, onun Fransa, İtaliya, Polşa, Rusiyanın yüksək mükafatlarına layiq görüldüyü vurğulanır.

Azərbaycanın Birinci vitse-prezidenti haqqında məqalələr "Dubai Hospitality News", "Almanara", "Meri Media", "Dubai Global News", "Iconic Lady" və s. nəşrlərdə də dərc edilib.













❖ ❖ ❖

Qırğızıstan və Özbəkistan portallarında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva haqqında məqalələr dərc edilib.

Qırğızıstanın "Golden Bridge News" portalında dərc olunan yazı AZƏRTAC-ın "Vətəninə və xalqına xidmət Birinci vitse-prezident Mehriban Əliyevanın həyat amalıdır" adlı məqaləsi əsasında hazırlanıb. Yazıda Birinci vitse-prezident Mehriban Əliyevanın ictimai-siyasi fəaliyyətini səciyyələndirən əsas məqamlara nəzər salınır. Həmçinin yazıda Mehriban Əliyevanın fotoşəkilləri yer alıb.

Özbəkistanın "Galampir" portalında dərc olunan məqalədə Birinci vitse-prezident Mehriban Əliyevanın həyatı və fəaliyyəti haqqında ətraflı məlumat verilir. Məqalədə Mehriban Əliyevanın Heydər Əliyev Fondunun prezidenti kimi fəaliyyəti və Birinci vitse-prezident vəzifəsinə təyin olunandan sonra gördüyü işlər diqqətə çatdırılır.

❖ ❖ ❖

Moldovanın nüfuzlu "Tribuna" informasiya portalı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva barədə məqalə yayıb.

AZƏRTAC-ın "Vətəninə və xalqına xidmət Birinci vitse-prezident Mehriban Əliyevanın həyat amalıdır" sərlövhəli məqaləsi əsasında hazırlanan yazıda Azərbaycanın birinci xanımının fəaliyyətinin kökündə mənsub olduğu xalqa sevginin dayandığı bildirilir. Vurğulanır ki, Mehriban Əliyeva Azərbaycanın ən böyük təəssübkeşlərindən biri, xalqının xoşbəxt gələcəyinə hesablanan bir çox layihələrin müəllifidir.

Birinci xanım Mehriban Əliyevanın 2004-cü ildə UNESKO-nun, 2006-cı ildə ICESCO-nun xoşməramlı səfiri seçilməsinin Azərbaycan mədəniyyəti üçün tarixi nailiyyət, əlamətdar hadisələr olduğu qeyd edilən yazıda onun himayəsi ilə mədəni irsin qorunması, mədəniyyətlərarası dialoqun təşviqi, təhsilin inkişafı və digər sahələrdə mühüm layihələr həyata keçirildiyi diqqətə çatdırılır. Vurğulanır ki, xoşməramlı səfir kimi o, Azərbaycan tarixini, mədəni irsini, həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq istiqamətində yorulmaz fəaliyyət göstərir. Mehriban Əliyevanın fəaliyyəti təkcə milli-mənəvi dəyərlərin, Azərbaycanın mənəvi və qeyri-maddi irsinin dünya miqyasında təbliğinə deyil, eyni zamanda, sivil dünyada sülh, sabitlik, sivilizasiyalararası dialoq, multikulturalizm kimi bəşəri ideyaların reallaşdırılmasına, bu sahələrdə səylərin birləşdirilməsinə yönəlib. Birinci xanımın yüksək təşkilatçılıq bacarığı sayəsində Azərbaycanın nüfuzlu tədbirlərə uğurla evsahibliyi etməsi ölkənin reallıqlarının təbliği baxımından mühüm əhəmiyyətə malikdir.

# Qanunları pozmaq və onların tələblərinə hörmətsiz yanaşmaq olmaz

***Fatma YILDIRIM,***
*Milli Məclisin deputatı:*

- Bütün dünya ölkələri, o cümlədən Azərbaycan koronavirus pandemiyası ilə mübarizəyə səfərbər olunub. Dövlətimiz tərəfindən bu istiqamətdə ardıcıl, sistemli tədbirlər həyata keçirilir. Bu günədək daxili işlər orqanları xüsusi karantin rejiminin tələblərini pozaraq əyləncə təşkil edən, toy və yas mərasimləri keçirən çox sayda şəxsi məsuliyyətə cəlb edib. Buna baxmayaraq, bəzi vəzifəli şəxslərin, məmurların müxtəlif toy mərasimləri təşkil etməsinə dair məlumatlar cəmiyyətin ciddi hiddətinə səbəb olub və qınağına məruz qalıb.

Azərbaycan Prezidenti ölkədə qanunun aliliyinin qarantıdır, hər kəsin qanun qarşısında məsuliyyəti və cavabdehliyi ali iradənin tələbidir. Heç bir vəzifəli şəxs öz statusundan istifadə edərək qanunları poza və onların tələblərinə hörmətsiz yanaşa bilməz.

Koronavirusla mübarizə çərçivəsində ölkəmizdə əhalinin sağlamlığının qorunması və təhlükəsizliyinin təmin edilməsi məqsədilə bir çox məhdudiyyətləri nəzərdə tutan xüsusi karantin rejimi tətbiq olunub. Nazirlər Kabineti yanında Operativ Qərargah yoluxma və sağalma hallarında müsbət dinamikanı nəzərə alaraq avqustun 10-dan yumşaldıcı tədbirlərin tətbiq





edilməsi barədə qərar verib. Müəyyən yumşaldıcı tədbirlər görülsə də, koronavirusla mübarizəyə ciddi təhdid yaratdığına görə kütləvi tədbirlərin, o cümlədən yas və toy mərasimlərinin keçirilməsinə qoyulan qadağa qüvvədə saxlanılıb.

Azərbaycan hüquqi dövlətdir, ölkəmizdə qanunun aliliyi təmin edilir, heç kim qanundan üstün ola bilməz, hamı qanun qarşısında bərabərdir və öz hərəkətlərinə görə məsuliyyət daşıyır. Qanunu pozanlar mütləq şəkildə məsuliyyətə cəlb edilməlidirlər və edilirlər. Hər bir şəxs mövcud reallığı, qanunların aliliyini, Azərbaycan Prezidentinin mövqeyini, ali iradəsini bilməli və başa düşməlidir ki, qanun pozuntusuna görə mütləq şəkildə cavab verməli olacaq. Heç kim şəxsi mənafeyi naminə, tutduğu mövqeyə, vəzifəsinə görə insanların həyatını təhlükəyə ata və onların sağlamlığına zərər gətirə bilməz.

***Məzahir ƏFƏNDİYEV,***
*Milli Məclisin deputatı:*

- Koronavirus pandemiyası ilə əlaqədar kütləvi tədbirlərin, o cümlədən toyların qadağan edildiyi bir vaxtda sosial şəbəkələrdə yayılan toy görüntüləri ictimai rəydə kəskin etiraz doğurub. Bu da təbiidir, çünki indiyə kimi bu cür mərasimlər keçirən sadə vətəndaşlarımız barədə inzibati tədbirlər görülüb və onların cəzalandırılması ictimaiyyətin gözü qarşısında baş verib.

Dövlətin insanları karantin rejiminin tələblərinə riayət etməyə çağırdığı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin gərginləşdiyi bir vaxtda cəmiyyətdə tanınan insanların bu hərəkətlərinə heç bir halda haqq qazandırmaq olmaz. Bu cür vəzifə daşıyıcıları sadə insanlara nümunə olmaq əvəzinə özləri qanunları kobud şəkildə pozur və buna bəzi hallarda hətta haqq qazandırmağa çalışırlar.

Toy sahiblərinin, eyni zamanda, iştirak edənlərin qanunları pozaraq Prezidentin çağırışlarına məhəl qoymamaları, həmçinin "Biz birlikdə güclüyük" şüarına saymazyana yanaşmaları ictimai rəydə hökumətin bu istiqamətdə hansısa sərt tədbirlər görəcəyinə şübhələri artırırdı. Lakin baş verən hadisələr bunun əksini göstərdi.

Azərbaycan ictimaiyyətinin haqlı tələbinə uyğun xalq qarşısında məsuliyyət daşıyan bu vəzifə sahiblərinin hakimiyyət tərəfindən cəzalandırılması ictimai təpki ilə yanaşı, dövlətin iradəsinin, gücünün bir daha ortada olduğunu əyani sübut etdi. Aydın oldu ki, artıq Azərbaycan cəmiyyətində toxunulmaz şəxs yoxdur, qanunu pozanlar kimliyindən asılı olmayaraq elə qanun qarşısında cavab verəcəklər.

Bu gün Azərbaycan üçün çətin, həssas bir zamanda hamımız birmənalı şəkildə Prezidentin yanında olmalıyıq və qanunu pozanlar bilməlidir ki, güclü dövlətimiz onlara layiq olduqları yeri göstərəcəkdir.

***Hazırladı:***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Hər kəsdən, hər şeydən üstün qanundur

## Heç bir vəzifəli şəxs öz statusundan istifadə edərək qanunları poza və onun tələblərinə hörmətsiz yanaşa bilməz

**Bütün Yer kürəsini bürüyən, dünyanın nizamını dəyişən koronavirus pandemiyası ilə mübarizə davam edir. Xəstəliyin qarşısının alınması istiqamətində dünya ölkələri ilə bərabər, Azərbaycanda da aylardır ciddi addımlar atılır.**

Qlobal pandemiya ilə mübarizənin ilk günlərindən Prezident İlham Əliyevin rəhbərliyi ilə lazımi qabaqlayıcı kompleks tədbirlər görüldü, ölkənin bütün resursları vətəndaşların sağlamlığının qorunmasına səfərbər edildi. Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə əhalinin sağlamlığının qorunması və təhlükəsizliyinin təmin edilməsi məqsədilə bir çox məhdudiyyətləri nəzərdə tutan karantin rejimi tətbiq olundu, pandemiya şəraitində xüsusi davranış qaydalarını müəyyən edən tələblər, qaydalar qoyuldu. Ölkə rəhbərinin bu məsələyə vaxtında çevik reaksiya göstərərək təxirəsalınmaz təbirlər görməsi ilə gizli və gözəgörünməz düşmənlə mübarizədə uğurlara imza atıldı. Təsadüfi deyil ki, bu sahədə ölkəmizin təcrübəsi dünyada nümunə kimi göstərildi. Azərbaycan dünyada COVID-19 pandemiyası ilə ən uğurlu mübarizə aparan ölkələrdən biri kimi tanındı. Hazırda respublikamız pandemiyadan ən az zərər çəkən dövlətlər sırasındadır.

### Məhdudiyyətlər tətbiq edilməsəydi, bu gün ağır bir mənzərə ilə qarşı-qarşıya qalardıq

Pandemiya şəraitində digər ölkələr kimi, Azərbaycanın da iqtisadi gəlirləri azaldı. Lakin iqtisadi itkilərə baxmayaraq, ölkə rəhbərinin göstərişi ilə dövlətin siyasətinin prioritetini vətəndaşların sağlamlığının qorunması təşkil etdi. Pandemiyanın yaratdığı fəsadları aradan qaldırmaq və vətəndaşlara dəstək məqsədilə dövlət büdcəsindən milyardlarla manat vəsait xərcləndi və bu proses davam etməkdədir. Dövlət tərəfindən atılan bu addımlarla bərabər, COVID-19-un yayılmasının qarşısının alınması üçün müvafiq qaydalar müəyyən edildi, karantin rejiminin pozulmasının qarşısının alınmasına nəzarət ciddi formada təşkil olundu.

Məhz bu uğurların nəticəsində hazırda ölkədə vəziyyət nəzarət altındadır. Səhiyyə sistemi Azərbaycandan güclü olan inkişaf etmiş ölkələrlə müqayisədə respublikamızda istər yoluxma, istərsə də ölüm sayına görə göstəricilər qat-qat aşağıdır. Xeyli vaxtdır koronavirusla bağlı gündəlik statistikada müsbət dinamika yaşanır. Ölkəmizdə müalicəsi davam etdirilən aktiv koronavirus xəstələrinin sayı 1700 civarındadır. Pandemiya xəstəxanalarının reanimasiya şöbələrində müalicə alan və süni tənəffüs cihazına qoşulan xəstələrin də sayı xeyli azalıb. Bu uğurlar görülən işlərin, çəkilən zəhmətin, edilən çağırışların və tətbiq olunan qadağaların hesabınadır. Əgər Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən vaxtında sərtləşdirilmiş və xüsusi karantin rejimi, qadağalar, məhdudiyyətlər tətbiq edilməsəydi, həmçinin görülən saysız-hesabsız işlər, atılan addımlar olmasaydı, bu gün arzulamadığımız, ağır bir mənzərə ilə qarşı-qarşıya qalardıq. Sevindirici haldır ki, hökumət tərəfindən həyata keçirilən qabaqlayıcı və uzaqgörən addımlar nəticəsində pandemiyanın ağır fəsadlarından, itkilərdən yayına bildik.

### Qadağalara, qaydalara əməl olunmaması yolverilməzdir

Məhz yoluxma və sağalma hallarında müsbət dinamikanı nəzərə alaraq Nazirlər Kabineti yanında Operativ Qərargah avqustun 5-dən mərhələli şəkildə yumşaldıcı tədbirlərin tətbiqi barədə qərar qəbul etdi. Bununla yanaşı, koronavirusla mübarizəyə ciddi təhdid yaratdığına görə kütləvi tədbirlərin, o cümlədən yas və toy mərasimlərinin keçirilməsinə qadağa qüvvədə saxlanıldı. Çünki mütəxəssislərin fikrincə, virus qapalı yerlərdə daha sürətlə yayılır. Düzdür, əksəriyyət tərəfindən karantin qaydalarına əməl olunur, toy, nişan, yas mərasimləri demək olar ki, keçirilmir. Ancaq bununla belə, hansısa bölgədə toy, nişan mərasimləri keçirilməsinə cəhd göstərənlər də olub. Görünür, karantin rejimində yumuşaldılmalar bəzi insanlarda arxayınlıq hissi yaradıb və onlar məsuliyyətsizlik göstərərək, toy şənlikləri təşkil ediblər. Asayiş keşikçiləri də dərhal həmin mərasimləri keçirənləri müəyyənləşdirərək, onları qanun çərçivəsində cəzalandırıblar. Bu günə kimi daxili işlər orqanları xüsusi karantin rejiminin tələblərini pozaraq əyləncə təşkil edən, toy, yas və s. mərasimləri keçirən çoxlu sayda şəxsi məsuliyyətə cəlb edib.

Əldə edilən uğurların, görülən işlərin fonunda bəzi şəxslərin qoyulan qadağalara, tətbiq olunan karantin qaydalarına və şərtlərinə əməl etməməsi yolverilməzdir. Bu günlərdə bəzi vəzifəli şəxslərin, məmurların müxtəlif toy mərasimləri təşkil etməsinə dair məlumatlar da cəmiyyət tərəfindən hiddətlə qarşılanıb, ciddi qınağa məruz qalıb.

### Qaydaları pozanlar kimliyindən asılı olmayaraq qanun qarşısında cavab verməlidirlər

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva dəfələrlə vətəndaşlara müraciət edərək, onları ehtiyatlı olmağa, qadağaları nəzərə almağa, karantin qaydalarına əməl etməyə çağırıblar. Onlar özləri şəxsi nümunə göstərərək qapalı məkanlarda maska taxır, bütün tədbirlərdə sosial məsafə saxlayırlar. Dövlət başçısı dəfələrlə bu məsələyə münasibət bildirərək qeyd edib ki, hansısa şəxslərin məsuliyyətsiz davranışına yol vermək olmaz. Çox təəssüf ki, bəzi vəzifəli şəxslər koronavirusla mübarizənin ümummilli məsələ olduğunu unudaraq şəxsi mənafeyi naminə tutduğu mövqeyə, vəzifəsinə görə özünü üstün saymaqla qanunları pozmağa cəhd ediblər. Unudublar ki, Azərbaycan hüquqi dövlətdir, ölkəmizdə qanunun aliliyi təmin edilib, heç kim qanundan üstün ola bilməz, hamı qanun qarşısında bərabərdir və öz hərəkətlərinə görə məsuliyyət daşıyır. Hər bir vətəndaş kimi, ictimai-siyasi xadimlər, hökumət üzvləri, xüsusilə deputatlar karantin rejiminə nəinki riayət etməli, həm də şəxsi nümunə göstərməlidirlər.

Heç bir vəzifəli şəxs öz statusundan istifadə edərək qanunları poza və onun tələblərinə hörmətsiz yanaşa bilməz. Belə şəxslər müəyyən olunduqda mütləq şəkildə məsuliyyətə cəlb edilirlər, onların barəsində cəza tədbirləri görülür və qarşıdan gələn dövrdə bu tədbirlər daha da sərtləşdiriləcək. Hər bir şəxs mövcud reallığı, qanunların aliliyini, Azərbaycan Prezidentinin mövqeyini və ali iradəsini bilməli, qanun pozuntusuna görə mütləq şəkildə cavab verməli olacağını başa düşməlidir.

Əgər qaydalar qəbul olunubsa, qadağalar müəyyənləşdirilibsə, kimliyindən, tutduğu mövqedən, sosial durumundan asılı olmayaraq hər kəs onlara birmənalı şəkildə əməl etməlidir. Bu, bizim vətəndaşlıq borcumuz və vəzifəmizdir. Əgər kimsə bu qaydaları pozursa, kimliyindən asılı olmayaraq qanun qarşısında cavab verməlidir. Hamımız qaydalara, qadağalara, qanunlara əməl etməyə borcluyuq. Hamı qanun qarşısında bərabər, eyni hüquqlara malikdir.

Koronavirusla mübarizə ümummilli məsələdir, heç kim şəxsi mənafeyi naminə, tutduğu mövqeyə, vəzifəsinə görə insanların həyatını təhlükəyə ata və onların sağlamlığına zərər gətirə bilməz. Bu reallığı hamı, həmçinin bəzi akademiklər də bilməli və başa düşməlidirlər ki, baş verənlərə görə mənəvi məsuliyyət daşıyırlar.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Ağ Ev uğrunda Tramp və Bayden mübarizə aparacaqlar

## Respublikaçı namizəd seçkilərin saxtalaşdırılacağından narahatdır

ABŞ-da növbəti prezident seçkilərinə iki ay yarım qalmış Ağ Evin hazırkı sahibi Donald Tramp Respublikaçılar Partiyasının ötən bazar ertəsi keçirilmiş qurultayında dövlət başçısı vəzifəsinə rəsmən namizəd irəli sürülmüşdür. Bütün ştatlardan Şimali Karolinanın Şarlott şəhərinə gəlmiş qurultay nümayəndələri səs çoxluğu ilə Trampın namizədliyini dəstəkləmişlər.

Trampın prezident seçkilərində respublikaçılardan namizəd göstərilməsi gözlənilən idi, çünki hazırkı dövlət başçısı bundan əvvəl partiyadaxili seçkilərdə elə bir müqavimətlə qarşılaşmadan qalib gəlmişdi. Odur ki, partiyanın qurultayında Trampın namizədliyinin yenidən irəli sürülməsi sırf formal xarakter daşıyırdı. Respublikaçılar Partiyasının qurultayı ABŞ-ın vitse-prezidenti vəzifəsinə namizəd kimi Mayk Pensi dəstəklədi.

Beləliklə, Tramp ardıcıl olaraq ikinci və sonuncu dəfə Ağ Evin sahibi olmağı hədəfləyir. Ötən dörd il ərzində ABŞ Prezidentinin yürütdüyü daxili və xarici siyasət heç də nailiyyətlərlə ötüşməmişdi. Tramp dövlət başçısı kimi əsas uğurları arasında sabit iqtisadi artımı qeyd edir. Lakin koronavirus pandemiyasının doğurduğu fəsadlar Prezidentin iqtisadi siyasətini sarsıtdı. Sərt məhdudiyyətlərin tətbiqi nəticəsində ölkədə işsizliyin səviyyəsi kəskin şəkildə artdı, ötən il oktyabrın 1-də başlamış cari maliyyə ilinin ilk on ayında büdcə kəsiri 2,8 trilyon dolları keçdi. Buna baxmayaraq, dövlət başçısı iddia edir ki, milli iqtisadiyyat pandemiya səbəbindən itirdiyi mövqeləri bərpa edir və gələn il iqtisadi sahədə hər şey təbii məcrasına qayıdacaq, yenidən tarixi uğurlara imza atılacaq.

Trampın yeritdiyi xarici siyasəti dünyanın az qala bütün dövlətlərini, hətta Vaşinqtonun müttəfiqlərini həyəcan içərisində saxlamışdır. Ağ Evin sahibi bəyan edirdi ki, ABŞ-ın qoşulduğu bir sıra beynəlxalq müqavilələr milli maraqlarla üst-üstə düşmədiyindən onlara yenidən baxmaq lazımdır. Tramp belə də etdi. Nəticə etibarilə ABŞ BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatından (UNESKO), BMT-nin İnsan Hüquqları Şurasından, Paris İqlim Sazişindən və Ümumdünya Səhiyyə Təşkilatından çıxdı. Eləcə də Vaşinqton Kanada və Meksika ilə Şimali Amerika Azad Ticarət Sazişini (NAFTA) ləğv edib onu yeni Kanada-Meksika-ABŞ Ticarət Sazişi (USMCA) ilə əvəzlədi.

ABŞ dünya ölkələrindən, o cümlədən Avropa İttifaqı və Çindən gələn mallara müxtəlif gömrük rüsumları tətbiq etdi. Vaşinqtonla Pekinin bir-birinə qarşı ticarət məhdudiyyətləri və əlavə rüsumlar tətbiq etməsi real ticarət müharibəsinə gətirib çıxardı. Koronavirus pandemiyası fonunda iki ölkə arasında münasibətlər daha da pisləşdi. Son vaxtlar Tramp Çinlə ticarət əlaqələrini tamamilə dayandırmağın vacibliyindən danışır. Üstəlik, Vaşinqton Çini yeni tip koronavirusun mənşəyi və epidemiyanın miqyası barədə məlumatları vaxtilə gizlətməkdə ittiham edir. Pekin bu iddiaları rədd edir, amma Tramp koronavirusu "Çin virusu" adlandırmaqda davam edir.

Trampın dövründə ABŞ ortamənzilli və yaxınmənzilli raketlərin ləğv edilməsi haqqında müqavilədən çıxdı, açıq səma müqaviləsindən çıxmaq niyyətində olduğunu açıqladı. Strateji hücum silahlarının ixtisar olunması və məhdudlaşdırılması tədbirləri haqqında müqavilənin taleyi sual altındadır, çünki müqavilənin müddəti gələn il başa çatsa da, onun uzadılmasından hələ də söhbət getmir.

ABŞ Prezidentinin son dörd il ərzində islam dünyasına münasibətdə yürütdüyü siyasətin nəticələri ağır oldu. Tramp seçkiqabağı təşviqat kampaniyasının gedişində vəd etdiyi kimi, İranın nüvə proqramına dair beynəlxalq sazişi qüvvədən saldı və Tehrana qarşı sanksiyaları bərpa etdi. Bu azmış kimi, Vaşinqton İranla əməkdaşlıq edən aparıcı dünya şirkətlərini sanksiyalarla hədələyir və bir sıra hallarda məqsədinə nail olur. Hazırda ABŞ-ın İranın neft ixracını sıfırlamağa və bununla islam respublikasının iqtisadiyyatını iflic vəziyyətə salmağa çalışır. İndi Tramp iddia edir ki, qarşıdan gələn prezident seçkilərində yenidən dövlət başçısı seçilsə, qısa zaman kəsiyində İranla ABŞ-ın maraqlarına cavab verən yeni saziş bağlaya biləcək.

Trampın hakimiyyəti illərində ABŞ İsraildəki səfirliyini Təl-Əvivdən Qüdsə köçürdü. Sonra Amerika lideri İsrail-Fələstin münaqişəsinin tənzimlənməsinə dair yeni təşəbbüsünü - "Əsrin anlaşması"nı açıqladı. Lakin fələstinlilər bu planı qətiyyətlə rədd etdilər. Onların fikrincə, Trampın təşəbbüsü yalnız İsrail tərəfinin maraqlarını özündə ehtiva etdiyindən, yəhudi dövlətinin işğal və ilhaq siyasətini qanuniləşdirmək məqsədi güddüyündən, faktiki olaraq suveren və müstəqil Fələstin dövlətinin yaradılmasını nəzərdə tutmadığından "Əsrin anlaşması" yox, "Əsrin şapalağı"dır. Trampın təşəbbüsü ərəb dünyasında da parçalanmağa gətirib çıxardı. Üç ərəb ölkəsi - Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Oman və Bəhreyn "Əsrin anlaşması"nı birmənalı şəkildə dəstəklədi. İndi BƏƏ İsraillə diplomatik münasibətlər qurmağa hazırlaşır. Digər tərəfdən, Tramp zaman-zaman Əfqanıstan, İraq və Suriyadakı ABŞ hərbi kontingentlərini çıxaracağını bildirir, lakin amerikalı hərbçilər hələ də sözügedən ölkələrdə qalırlar.

Məlum olduğu kimi, ABŞ Demokratlar Partiyasından prezidentliyə rəsmi namizəd ölkənin sabiq vitse-prezidenti Cozef Baydendir. O, partiyanın qurultayında bu il noyabrın 3-də keçiriləcək prezident seçkilərində respublikaçı rəqiblə Ağ Ev uğrunda mübarizə etmək hüququ qazanmışdır.

Son rəy sorğularının nəticələri göstərir ki, Bayden reytinqdə Trampı üstələyir. Lakin bu, demokrat namizədin qələbə qazanacağına zəmanət vermir, yalnız onun ABŞ-ın növbəti Prezidenti seçilmək üçün real şansı olduğuna dəlalət edir. Tramp xalq arasında populyarlığının aşağı düşməsindən əndişələnməmiş deyil. Respublikaçı namizəd partiyasının son qurultayında iddia etmişdir ki, Demokratlar Partiyası seçkilərlə manipulyasiya etmək niyyətindədir: "Onlar seçkiləri respublikaçılardan oğurlamağa çalışırlar". Tramp əvvəllər də deyirdi ki, koronavirus epidemiyası üzündən poçtla səs verənlərin çox olacağından kütləvi saxtalaşdırmalar ola bilər və bu onda ciddi narahatlıq doğurur. ABŞ Prezidenti belə bəyanatlar verməklə, bəlkə də, noyabrda üzləşəcəyi məğlubiyyəti bəri başdan sığortalamaq məqsədi güdür.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanda koronavirus infeksiyasına daha 148 yoluxma faktı qeydə alınıb, 91 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 148 yoluxma faktı qeydə alınıb, 91 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 35 min 707 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 33 min 281 nəfər müalicə olunaraq sağalıb, 522 nəfər vəfat edib. Aktiv xəstə sayı 1904 nəfərdir.

Ötən müddət ərzində 892 min 70 test aparılıb. Dünənki test sayı isə 6791-dir.

# REGİONLAR



# Arıçılıq gədəbəylilərin ənənəvi peşəsidir

**Təbii iqlimi, zəngin bitki örtüyü ilə əhatə olunmuş Gədəbəydə arıçılığın inkişaf etdirilməsi üçün hər cür şərait var. Bu şəraitdən istifadə edən rayon sakinləri son vaxtlar iqtisadi cəhətdən səmərəli olan arıçılığın inkişaf etdirilməsinə daha çox maraq göstərirlər.**





Bunun nəticəsidir ki, hər il rayonda arı ailələrinin sayı artır. Keçən il rayonda 865 nəfər təsərrüfat sahibi 9 min 425 arı ailəsinə qulluq edirdisə, bu il arı ailələrinin sayı 10 min 241-ə çatıb. Keçən il arıçılara 94 min 250 manat subsidiya ödənilmişdisə, cari ildə bu rəqəmin 102 min 410 manat olacağı gözlənilir.

Arıçılığın inkişafı ilə əlaqədar dövlət tərəfindən verilən subsidiya Gədəbəyin arıçıları arasında böyük canlanma yaratmışdır. Nəticədə rayonda bal istehsalında nəzərə çarpacaq dərəcədə artım qeydə alınmışdır. Prezident İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, arıçılığın inkişafının stimullaşdırılması məqsədilə təsərrüfat sahiblərinə saxladıqları hər arı ailəsinə görə subsidiyaların ödənilməsi söz yox ki, arıçılıqla məşğul olan təsərrüfat sahiblərini daha çox həvəsləndirir. Bu, gələcəkdə arı ailələrinin sayının daha da artırılmasına maraq oyadır. Məsələn, Arıqıran kəndinin sakini Yəhya İsgəndərovun keçən il 87 arı ailəsi var idisə, bu il onların sayı 102-yə çatdırılmışdır. Gədəbəy şəhərindən Müşfiq Kazımov və Qoşabulaq kəndindən Hafiz Əhmədov da baxdıqları arı ailəsinin sayını bu il xeyli artırmışlar.

Gədəbəy Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Asəf Nağıyevlə söhbət zamanı məlum oldu ki, keçən il rayonda 76 ton bal istehsal edilib. Cari ildə bu rəqəmin 80 tondan çox olacağı gözlənilir. Arıçılardan 6 nəfəri istehsal etdiyi balın bir hissəsini Bakıda təşkil olunan yarmarkada satsalar da, əksər sakinlər öz məhsullarını elə qapıda təhvil vermişlər. Belə arıçılardan biri də Dəyirmandağ kəndinin sakini Rafiq Nağıyevdir. Onunla apardığımız söhbət zamanı söylədiyi fikirlər bizdə maraq oyatdı və qərara gəldik ki, onun təsərrüfatında olaq.

Rayon mərkəzindən o qədər də uzaq olmayan Dəyirmandağ kəndi təbiətin gözəl bir guşəsində yerləşir. Yolboyu bu yerlərin tarixindən böyük həvəslə söhbət açan müsahibimiz dedi ki, belə bir gözəllikdə yaşamağın özü insan üçün böyük xoşbəxtlikdir. Hər tərəfi yamyaşıl təpələrlə və dağlarla əhatə olunmuş Dəyirmandağ kəndinin sakinləri zəhmətkeş və işgüzardırlar.

Nəhayət, magistral yoldan çıxıb dolama yollarla Rafiq Nağıyevin evinə çatdıq. İlk sözü bu oldu ki, tələsməyin, indi sizə elə bir balla çay verəcəm ki, mənin balımın yarmarkaya çıxarılıb satılmağa ehtiyacı olmadığını özünüz görəcəksiniz.

Çay süfrəsi arxasında onun istehsal etdiyi balın dadına baxdıq. Doğrudan da, keyfiyyətinə söz ola bilməz. Rafiqə ilk sualım bu oldu:

- Arıçılıqla nə vaxtdan məşğul olursan?

Müsahibim o dəqiqə dilləndi:

- Gözümü açandan.

Arıçılığın sirlərini ana babası Müseyib Məsimovdan və bir də o vaxtlar kənddə məktəb direktoru işləyən atası Yusif Nağıyevdən öyrəndiyini söyləyən Rafiq əlavə etdi ki, bu sahədə anası Əzəd Nağıyevanın da zəngin təcrübəsi var. Elə indi də çətinə düşəndə ondan məsləhət alır.

Rafiq Nağıyevin iki ali təhsili var. 1984-cü ildə Azərbaycan Dövlət Aqrar Universitetinin Baytarlıq fakültəsini bitirdikdən sonra bir müddət rayon Baytarlıq idarəsində çalışıb. Lakin şeirə və bədii yaradıcılığa marağı onu Bakıya, Sosial İdarəetmə və Politologiya İnstitutuna gətirib. O, institutun Jurnalistika fakültəsinə daxil olub və 1992-ci ildə oranı bitirərək rayonda nəşr olunan "Qızıl Gədəbəy" qəzetində ədəbi işçi kimi çalışıb. Bu müddət ərzində - "Gədəbəy qədim sivilizasiya beşiyidir" və "Arıçılığın əsasları" kitablarını nəşr etdirib. Lakin ölkəmizdə aqrar sahənin inkişafına göstərilən dövlət qayğısı onu da yenidən əvvəlki peşəsinə qaytarıb. Hazırda rayon baytarlıq idarəsində çalışır. İctimai işlərdə də fəallıq göstərir. O, hazırda rayon Arıçılar assosiasiyasının sədridir. Boş vaxtlarında şeirlər yazır, Gədəbəyin qədim tarixi və toponomikasının araşdırılması ilə məşğul olur.

Söhbət zamanı Rafiq Nağıyev diqqəti ən çox arıçılığın inkişaf perspektivlərinə yönəltdi. Dedi ki, Gədəbəy tarixən arıçılığın inkişaf etdirilməsi istiqamətində öndə gedən rayonlardan olub. Burada arıçılıq çox qədim tarixə malikdir. Təsadüfi deyil ki, bir çox kəndlərin adı arıçılığın adı ilə bağlıdır. Rayonun Arıqıran, Arısu və sair kəndləri buna misal ola bilər.

Hazırda 20 mindən artıq arı növü var. Dünyanın elə bir yeri yoxdur ki, orada arıçılıqla məşğul olunmasın. İşçi arının ömrü isə cəmi 40 gündür. 17-18 günlükdə arılar artıq bal yığımına çıxırlar. Onlar bir gündə 15 kilometrə qədər yol qət edirlər. Arı 15 kilometr məsafədə yaxşı nektar tapanda qayıdıb o biri arılara da xəbər verir. Ümumiyyətlə, arıların maraqlı xüsusiyyətləri var. Məsələn, bir pətəyin arıları digər pətəyin arılarını ora buraxmırlar. Hər bir pətəyin qabağında keşikçi arılar olur. Pətəyin içərisində müəyyən qrup arılar var ki, onlar digər arıların xortumlarında gətirdikləri şirəni, ayaqlarındakı çiçək yarpaqlarını yerbəyer edirlər.

Söhbət zamanı Rafiq Nağıyev onu da dedi ki, Gədəbəydə keçirilən iki beynəlxalq layihəyə rəhbərlik edib. 2009-cu və 2013-cü illərdə Gədəbəy Mis-Qızıl Zavodunun nəzdində təşkil olunmuş təlimdə 64 nəfər gənc arıçının hazırlanmasında fəallıq göstərib. Dünyada məhsuldarlığına görə məşhur olan "Kornika" arı növünün Gədəbəyə gətirilməsinə nail olub. 2009-cu ildə Türkiyənin İstanbul şəhərində yerləşən Lalahan Universitetində arıçılıq üzrə kursda iştirak edib. Həmişə də çalışıb ki, rayon Arıçılar assosiasiyasının sədri kimi bildiklərini arıçılara da öyrətsin. Hazırda rayondakı peşə liseyində arıçılıq kursu da fəaliyyət göstərir. Kursun dinləyiciləri hər il Rafiq Nağıyevin arıxanasında təcrübə keçirlər.

Söhbət zamanı rayon Arıçılar assosiasiyasının sədri onu da əlavə etdi ki, bal istehsalında təbiət mühüm rol oynayır. Bəzən elə olur ki, təbiətdə mövcud olan çiçəklərdə nektar az olur. Belə olan halda arı istənilən qədər bal toplaya bilmir. Bəzən də əksinə, arılar çox da uzağa getmədən çoxlu bal toplayırlar.

Bu il Gədəbəydə təbiət arıçıların üzünə gülür. İndi dağ və yamaclarda şahtəpə, dağ şalfeyi, cökə, daş yarpızı, dağ laləsi və sair bitkilər olduqca çoxdur. Hiss olunur ki, cari ildə rayonda bal çox olacaq. Bol məhsul isə insanların güzəranının daha da yüksəlməsi deməkdir.

Rafiq Nağıyev onu da vurğuladı ki, indi işi çox olduğundan arı ailələrinin sayını artıra bilmir. Hazırda 33 arı ailəsinə qulluq edir. Lakin təqaüdə çıxanda onların sayını iki dəfəyədək artırmağı qarşısına məqsəd qoyub.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Cəlilabadda üzüm yığımı sürətlənir

***Keçən əsrin 70-80-ci illəri arasında Cəlilabadda üzümçülük sürətlə inkişaf etdirilib. Məhsul istehsalı ildən-ilə artırılıb. 1982-ci ildə burada rekord səviyyədə - 32 min hektar üzüm bağında 300 min ton məhsul yetişdirilib. Bu da Ermənistandakı illik istehsaldan xeyli - 50 min ton çox olub.***



Həmin dövrdə Cəlilabadda ovaxtkı yeni texnologiyalar əsasında şərab zavodları tikilib. Kənd təsərrüfatından, o cümlədən onun mühüm sahəsi olan üzümçülükdən gələn gəlirlər rayonun sosial-iqtisadi inkişafına, insanların həyat səviyyəsinin, rifahının yüksəlməsinə səbəb olub. Neçə-neçə əmək qabaqcılı əldə etdiyi nailiyyətlərə görə ən yüksək mükafatlara layiq görülüb. O illər indi də yaşlı və orta nəsil nümayəndələrinin yaxşı yadındadır. Respublika rəhbəri Heydər Əliyev, demək olar ki, hər il Cəlilabada səfər edər, zəhmətkeş insanlarla görüşər, söhbət edər, onları düşündürən məsələlərlə maraqlanar, daha böyük uğurlara ruhlandırardı. Sonralar baş verən məlum hadisələr səbəbindən respublikamızın hər yerində olduğu kimi, Cəlilabadda da iqtisadiyyat, eləcə də üzümçülük qısa zaman kəsiyində tənəzzülə uğradı, yerlə yeksan edildi.

Xalqımız müstəqilliyini bərpa etdikdən və Ulu Öndər yenidən hakimiyyətə qayıtdıqdan sonra bütün bölgələrimizə, o cümlədən Cəlilabada da diqqət və qayğı artırıldı. 2004-cü il fevralın 11-də Prezident İlham Əliyev tərəfindən imzalanan regionların sosial-iqtisadi inkişafına dair birinci və eləcə də sonrakı dövlət proqramları çərçivəsində rayonda bütün sahələr, o cümlədən üzümçülük də inkişafa başladı. İndi üzüm bağlarının sahəsi ildən-ilə genişlənməkdədir. Hazırda rayon üzrə 401 hektar üzüm bağı var. İndi hər bir fermer, torpaq mülkiyyətçisi hansı növ bitkinin ona sərfəli olacağı, yaxşı gəlir gətirəcəyini əvvəlcədən dönə-dönə ölçübbiçir, sonra nə əkib-becərəcəyinə qərar verir. Rayonun üzümçüləri təqribən 10-12 il bundan əvvəl Fransadan və digər ölkələrdən xəstəliyə davamlı, məhsuldar üzüm tingləri alıb gətirmişlər. Nəticəsi isə hətta gözlədiklərindən də qat-qat yaxşı olub. Münbit torpağı, bol günəş işığı, bacarıqlı mütəxəssisləri və zəhmətkeş insanları olan Cəlilabadda həmin gətirilmə tinglər daha tez boy atıb yetkin tənəklərə çevrildi, bara düşdü, üzüm giləiləri böyük və şirəli oldu. Belə bir keyfiyyətli məhsul alıcılar tərəfindən də rəğbətlə qarşılanır.





O da məlumdur ki, üzümçülük çox zəhmət tələb edən, əmək tutumlu sahədir. Burada ilin hər fəslində iş bulaq kimi qaynayır. İlboyu bağlara qulluq olunur. Qışda tənəklərin dibi bellənir, cərgələrin arası keyfiyyətlə şumlanır. Suyu vaxtında verilir. Yazqabağı budama işləri aparılır. Budama da böyük bacarıq, bilik və diqqət tələb edən işlərdən biridir. Sonra aqrotexniki qaydaları rəhbər tutmaqla becərmə, dərmanlama, ucvurma və digər tədbirlər həyat keçirilir. Bağlarda çalışan, tər tökən hər kəs bol məhsul yetişdirməyi hədəfə alır. Beləliklə, həm əhalinin məşğulluq problemi həll edilir, həm də ərzaq təhlükəsizliyi proqramına töhfələr verilir, ekoloji cəhətdən təmiz məhsul əldə edilir, insanların ağzı, necə deyərlər, dada gəlir. Cəlilabadda süfrə üzümlərindən başqa, texniki üzüm sortları da yetişdirilir ki, bu məhsullardan alınan şərab da dünya bazarında böyük rəğbətlə qarşılanır, ölkəyə valyuta gətirir.

Bu il də fermerlərin, torpaq mülkiyyətçilərinin, bağbanların zəhməti öz barını vermiş, bağlarda bol məhsul yetişmişdir. Hazırda rayonda üzüm yığımı gündən-günə sürətlənir. Hər gün Cəlilabadın üzüm bağlarından Sədərəkin "Meyvəli", habelə respublikamızın digər bazarlarına 10 tonlarla süfrə üzümü göndərilir. Cari ildə bol məhsul əldə edən fermerlərdən biri də Sahib Mədətovdur. Onun 35 hektar üzüm bağı var. Bacarıqlı bağban üzüm plantasiyalarında "Sultanı", "Apon", "Kordinal", "Prima" və digər sortlardan olan üzümlər yetişdirmişdir. S. Mədətov indiyədək təsərrüfatından 100 tondan çox məhsul toplamışdır. Hələ bağlarda məhsul çoxdur. Deməli, cəlilabadlılar üzümçülük sahəsində qazandıqları keçmiş şöhrəti geri qaytarmaq üçün əzmlə çalışırlar.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Ağstafadakı Dilbaz Atçılıq Kompleksi tamamilə yenidən qurulmuşdur





**Dünyada 260 at cinsindən ikisi - Qarabağ və Dilbaz atları seleksiya yolu ilə Azərbaycanda yaranmışdır.**

Tarixi mənbələrdən məlum olur ki, məşhur Qarabağ atından sonra dünya şöhrəti qazanmış Dilbaz atının cinsi təqribən XVIII əsrin sonu - XIX əsrin əvvəllərində yerli atların Şərq atları ilə çarpazlaşdırılması nəticəsində Qazax qəzasında yaradılıb. Bu atlardan insanlar idmanda, minikdə, yük daşınmasında və yüngül qoşquda istifadə ediblər.

Dözümlü və dağlıq şəraitdə minik üçün əlverişli olması sayəsində Dilbaz atlarının sayı qısa vaxtda ölkəmizdə 25 minə çatmışdı. Lakin Birinci və İkinci Dünya müharibələri zamanı atların cəbhəyə cəlb edilməsi onların sayının kəskin şəkildə azalmasına səbəb olmuşdur. Yalnız 1944-cü ildə bu atların keyfiyyətləri nəzərə alınaraq Ağstafa Dilbaz Dövlət Döllük Ocağı təşkil edilmişdir. Həmin vaxtdan sonra Dilbaz atlarının həm cinsi yaxşılaşdırılmış, həm də sayı xeyli artırılmışdır. Yaradılan bu cinslər cıdır meydanlarında özünü göstərmiş, keçirilən yarışlarda layiqli yerlər tutmuşdur.

Təəssüflə demək lazımdır ki, sovetlər birliyi dağıldıqdan sonra bu sahədə də inkişaf dayanmış, necə deyərlər, sahə tənəzzülə uğramışdır. Ağstafa Atçılıq Zavodunun fəaliyyəti dayandırılmışdır. Lakin Prezident İlham Əliyevin Azərbaycanda atçılığın cins tərkibinin yaxşılaşdırılması və inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıqlara uyğun olaraq, Ağstafa Dilbaz atçılıq təsərrüfatı yenidən qurulmağa başlamış və qısa vaxt ərzində rayonun Böyükkəsik kəndi ərazisində Dilbaz atları üçün kompleks yaradılmışdır.

Təsərrüfat üçün 15 hektar sahə ayrılmışdır. Burada 137 baş at saxlanılır. Təsərrüfatda atlar qruplara bölünüb. Atların yarışlara hazırlanması üçün cıdır meydanı inşa edilib. Əsasən 2-3 yaşlı dayçalar təlimlərə cəlb olunur. Atların yemlənməsi üçün təsərrüfatın 435 hektar əkin və 927 hektar otlaq sahəsi var.

Təsərrüfatda stasionar baytarlıq otağı yaradılıb ki, burada da müntəzəm olaraq müxtəlif xəstəliklərə qarşı mübarizə tədbirləri həyata keçirilir.

Təsərrüfatda pandemiyaya qarşı mübarizə məqsədilə də kompleks tədbirlər həyata keçirilir. Tövlələr demək olar ki, hər gün dezinfeksiya olunur.

Qeyd edək ki, Dilbaz atçılıq təsərrüfatı rayon rəhbərliyinin daim diqqət mərkəzində saxlanılır. Yaranmış hər hansı problem qısa vaxt ərzində aradan qaldırılır. Elə bu günlərdə təsərrüfatda olan Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov atların vəziyyəti ilə maraqlanmış, onların saxlandığı tövlələrə, stasionar baytarlıq otağına, cıdır meydanına, yem anbarı və digər yardımçı binalara baxış keçirmişdir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Naxçıvanda kənd təsərrüfatı məhsullarının istehsalında 3,5 faiz artım qeydə alınıb



Bu ilin yanvar-iyul aylarında muxtar respublikada 256 milyon 287 min 600 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 3,5 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, bu dövr ərzində diri çəkidə ət istehsalı 13 min 673 ton, süd istehsalı 61 min 361 ton olub.

2019-cu ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 2,4 faiz, süd istehsalı isə 1,7 faiz artıb.

# Masallıda payızlıq əkinlər üçün 2390 hektar sahədə yay şumu aparılıb



Bu il Masallı rayonunda 17 min hektardan çox sahədə payızlıq əkinlər üçün yay şumu aparılacaq. İndiyədək 2390 hektar sahədə yay şumu aparılıb. Bu barədə Masallı Rayon Statistika İdarəsindən AZƏRTAC-a məlumat verilib.

Rayonda yay şumu ilə paralel olaraq, payızlıq əkin üçün yüksək reproduksiyalı toxum, habelə şum altına vermək üçün gübrə tədarük olunur, səpində istifadə olunacaq texnika hazır vəziyyətə gətirilir.

Qeyd edək ki, bu il Masallıda 9634 hektar sahədən 22 min 116,4 ton taxıl məhsulları yığılıb. Bunun 16 min 271,7 tonu buğda, 5 min 844,7 tonu arpadır. Taxıl sahələrinin hər hektarından götürülən məhsuldarlıq 23 sentner təşkil edib.

# Yol infrastrukturu yenilənir

**Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının prioritet istiqamətlərindən biri də məhz yol infrastrukturunun yenidən qurulmasıdır.**



Regionların inkişafına dair Dövlət proqramı çərçivəsində respublikanın hər yerində olduğu kimi, Sumqayıtda da yolların təmiri və yenidən qurulması istiqamətində geniş işlər görülür. Bu günədək Sumqayıtda yolların bir qismi təmir edilmiş, bəzi ərazilərə isə yeni yol çəkilmişdir.

Sumqayıtın yol infrastrukturunun yenilənməsi xüsusi proqram üzrə aparılır. Şəhərin qəsəbələrində və kommunikasiyası yenilənən küçələrdə təmir işləri davam etdirilir. Hazırda təmir işləri şəhərin Kamal Axundov küçəsində aparılır. K.Axundov küçəsində həyata keçirilən təmir işləri müasir texnikaların köməyi ilə həyata keçirilir. Uzunluğu 600 metr olan küçəyə 9000 kvadratmetr asfalt örtüyü döşənib. Küçəyə yol hərəkətini nizamlayacaq müasir işıqforlar quraşdırılır.

Adıçəkilən yolda işlər texnoloji əsaslarla aparılır. Bütün yol texniki qaydalarla düzəldilir. Yol yatağının eroziyalaşan əraziləri köklü şəkildə təmir edilir. Piyada keçidlərinin təmiri də diqqət mərkəzindədir. Piyada keçidlərinin yaşayış ərazilərinə yaxın torpaq sahəsində yaşıllaşdırma işləri də aparılır. Onların suvarılması üçün boru xətləri çəkilir.

Onu da bildirək ki, Sumqayıtda yol infrastrukturuna yönələn diqqət nəticəsində son beş ildə, ümumilikdə, 3,5 milyon kvadratmetr ərazidə asfaltlanma işləri aparılıb. Yolların təmiri şəhər icra hakimiyyətinin xüsusi nəzarətindədir. Prospekt və küçələr, yaşayış massivlərinin ara yolları, qəsəbələr növbəli şəkildə təmir edilir. Həmçinin şəhərdə 4 yeni yol da salınıb ki, onun da uzunluğu 7 kilometrdən çoxdur.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***



# Əsir götürülmüş erməni zabiti: “Ermənistan ordusunun Azərbaycan Silahlı Qüvvələrinə qalib gəlmək şansı yoxdur”

## Ermənistan ordusunun diversiya qrupunun əsir götürülmüş komandiri videomüraciət edib

Avqustun 23-də saat 06 radələrində cəbhənin Goranboy rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupunun komandiri, baş leytenant 1989-cu il təvəllüdlü Qurgen Alaverdyan Azərbaycan Ordusu tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində müəyyən edilərək saxlanılıb.



AZƏRTAC xəbər verir ki, avqustun 26-da Qurgen Alaverdyanın videomüraciəti yayılıb.

Videomüraciətində 1989-cu il avqustun 14-də Ermənistan Respublikasının Syunik vilayətinin Martuni şəhərində anadan olduğunu deyən düşmən ordusunun zabiti 2015-ci ildən Ermənistan silahlı qüvvələrində xidmətə başladığını deyib. O, zabit qismində Ermənistan Müdafiə Nazirliyinin Ermənistan ərazisində dislokasiya olunmuş 21127 nömrəli hərbi hissəsində xidmət etdiyini, bir müddət sonra Azərbaycan Respublikasının işğal olunmuş Kəlbəcər rayonu ərazisindəki 75937 nömrəli hərbi hissənin kəşfiyyat bölüyündə taqım komandiri vəzifəsində döyüş postlarında xidmətini davam etdirdiyini bildirib: “Təxminən iyul ayının sonunda hərbi hissənin komandiri polkovnik Vazgen Vartanyan mənimlə birgə bir neçə kəşfiyyatçıdan ibarət hərbçiləri, habelə əraziyə yaxşı bələd olan “Hovaz-2” və “Ömər-2” postlarında müdafiəni təşkil edən taqımın komandiri baş leytenant Armen Camalyanın, post başçısı Qrena Hakopyanın daxil olduğu qrupu yanına çağırdı. O, yuxarı komandanlığın göstərişi ilə yaxın vaxtlarda Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Goranboy rayonunda təmas xəttindəki döyüş mövqelərində diversiya törədilməsi, yəni, qumbara və avtomat silahlardan istifadə edərək mümkün qədər çoxlu sayda Azərbaycan hərbçisinin məhv edilməsi, eləcə də bir hərbçinin əsir götürülməsi ilə bağlı əməliyyat keçirilməsi üçün hazırlıq görülməsini tapşırdı. Bundan sonra həmin qrup təxminən 20 gün ərzində xüsusi təlim keçərək ərazini dəqiqliklə öyrənib. Diversiya aktının keçirilməsi üçün “Hovaz-2” postunun qarşısındakı mövqe seçilib və bununla bağlı əməliyyat planı hazırlanıb. Daha sonra həmin diversiya aktının keçirilməsi üçün əlverişli hava şəraitinin yaranması gözlənilib”.

Q.Alaverdyan rəhbərliyi altında olan diversiya qrupunun avqustun 23-də saat 02:30 radələrində havanın dumanlı olmasından istifadə edərək əvvəlcədən planlaşdırılmış marşrutla Azərbaycan Silahlı Qüvvələrinin Goranboy rayonundakı mövqeləri istiqamətində hərəkət etdiyini deyib: “Biz Azərbaycan Silahlı Qüvvələrinin döyüş postunun ərazisinə daxil olmaq istəyərkən Azərbaycan hərbçiləri tərəfindən verilmiş “Həyəcan” siqnalı əsasında aşkar olunduğumuzu anlayaraq geri qayıtmaq məcburiyyətində qaldıq. Ərazini tərk edərkən qrup üzvləri qaçmağa müvəffəq olsalar da, mən havanın dumanlı olması səbəbindən istiqaməti müəyyən edə bilmədiyim üçün əsir götürüldüm”.

Ermənistan silahlı qüvvələrinin zabiti olaraq Azərbaycanın işğal olunmuş ərazilərində xidmətini davam etdirmək istəmədiyini qeyd edən Q.Alaverdyan hərbi qulluqçu kimi bu ərazidə məcburiyyət qarşısında xidmətə cəlb olunduğunu bildirib: “Törətdiyim əmələ görə peşmançılıq hissi keçirməklə yanaşı, Ermənistan silahlı qüvvələrinin tərkibində mənim kimi xidmət edən bir çox hərbi qulluqçunun Azərbaycanın işğal edilmiş ərazilərində məcburi olaraq xidmətə göndərildiyini bildirmək istəyirəm. Əsir götürüldükdən sonra təsəvvürlərimin tam əksinə olaraq, mənə qarşı heç bir qeyri-insani davranış, işgəncə, təzyiq olunmayıb. Eyni zamanda qidalanmağım və saxlanma şəraitimlə bağlı heç bir şikayətim yoxdur. Mən Azərbaycan Respublikasında qalmaq istəyirəm, bilik və bacarıqlarımla bu dövlətə xidmət etmək niyyətindəyəm. Mən, həmçinin başa düşdüm ki, Ermənistan ordusunun Azərbaycan Silahlı Qüvvələrinə qalib gəlmək şansı yoxdur”.

# Ermənistan terror dövləti olduğunu növbəti dəfə təsdiqlədi

Avqustun 23-də cəbhənin Goranboy rayonu istiqamətində baş verən hadisə bir daha Ermənistanın işğal və terror siyasəti yürütməsini təsdiqlədi. Qeyd edək ki, hərbçilərimizin sayıqlığı, fədakarlığı və peşəkarlığı ilə düşmənin diversiya-kəşfiyyat qrupunun təxribat törətmək cəhdinin qarşısı layiqincə alındı. İfşa olunan diversantlar itki verərək geri qaçsalar da, onlara komandirlik edən Qurgen Alaverdyan əsir götürüldü.

### Düşmənin diversiya cəhdini təkzib etməsi təəccüb doğurmur

Bu hadisədən sonra Ermənistan tərəfinin açıqlaması həmişə olduğu kimi ənənəvi yalanlar üzərində quruldu. Guya ki, erməni zabit dayaq məntəqəsini yoxlayarkən əlverişsiz hava şəraiti ucbatından “yolu azaraq itkin düşüb”. Ermənilər bunu deməklə diversiya faktını təkzib etməyə çalışdı. Əlbəttə, hərbçinin yolu azması mümkündür, amma Qurgen Alaverdyanın üzərindən götürülən hərbi ləvazimatlar yolu azma faktını tamamilə inkar edir. Belə ki, onun üzərindən tapılan əşyalar erməni zabitinin dayaq məntəqəsini yoxlamasından deyil, kəşfiyyat-diversiya tapşırıqlarını yerinə yetirməsindən xəbər verir.

Erməni diversiya-kəşfiyyat qrupunun hərbçilərimiz tərəfindən aşkara çıxarılması və əsir götürülməsi birinci dəfə deyil. Bundan əvvəl də Ermənistanın Azərbaycana qarşı terror, diversiya və sabotaj törətmək cəhdlərinin qarşısı bir neçə dəfə alınıb, bu əməliyyatlar zamanı düşmənin hərbi qulluqçuları əsir götürülüb. Onlardan Arsen Eduardoviç Baqdasaryan diversiya qrupunun digər üzvləri ilə birlikdə 2014-cü il dekabrın 26-da saat 15 radələrində qoşunların təmas xəttini gizli olaraq keçərək Azərbaycan Silahlı Qüvvələrinin müdafiə mövqelərində özləri ilə götürdükləri 7 ədəd “fuqas” tipli piyada əleyhinə minalardan 3 ədədini Azərbaycan hərbi qulluqçularının daha çox gedib-gəldiyi səngər yollarında yerləşdirdikdən sonra geri qayıtmaq istəyərkən tutulub. O, cəzasını ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə 15 il müddətinə azadlıqdan məhrum edilib.

Başqa bir erməni diversant Karen Armenoviç Ğazaryan isə 2018-ci il iyulun 15-i səhər saatlarında Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində kəşfiyyat-diversiya qrupunun tərkibində təmas xəttini keçməyə cəhd göstərib. Azərbaycan Ordusunun bölmələrinin sayıqlığı nəticəsində düşmənin təxribat cəhdinin qarşısı alınıb və itkilər verərək geri çəkilməyə məcbur edilən qrupun bir üzvü Karen Ğazaryan ələ keçib. O, qabaqcadan əlbir olan bir qrup şəxs halında iki və daha çox şəxsi terrorçuluqla və milli ədavət düşmənçilik niyyəti ilə qəsdən öldürməyə cəhd göstərib. Bu məqsədlə odlu silah və döyüş sursatını qaçaqmalçılıq yolu ilə Azərbaycan ərazisinə keçirməyə, həmin silah-sursatdan istifadə etməklə ictimai təhlükəsizliyi pozmağa, əhali arasında vahimə yaratmaq məqsədi ilə partlayışlar törətməklə insanların həlak olmasına nail olmağa cəhd edib, habelə casusluq hərəkətləri etməyə çalışıb. Məhkəmənin hökmü ilə cəzasını ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə 20 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd etmək lazımdır ki, hər dəfə təxribat qrupunda olan hər hansı bir şəxs Azərbaycan Ordusunun bölmələri tərəfindən ələ keçirildikdən sonra qarşı tərəf onları psixi problemləri olan kənd sakini, ruhi xəstə, çoban, cinayət törətmiş kriminal element və sərxoş halda yolunu azaraq itkin düşən kimi təqdim edir. Son olaraq əsir götürülən Qurgen Alaverdyan əgər zabit hərbi geyim formasında olmasaydı, sözsüz ki, Ermənistanın müdafiə nazirliyi onu da ya çoban, ya da ruhi xəstə kimi qələmə verəcəkdi. Bu baxımdan düşmən ölkənin müvafiq qurumlarının diversiya cəhdi faktını təkzib etməsi təəccüb doğurmur.

### Təxribat yenə də erməni hərbçilərinin öz başlarında çatladı

Ümumiyyətlə, Ermənistan tərəfi özünün terrorçu mahiyyətindən irəli gələrək dəfələrlə Azərbaycana qarşı belə diversiya hərəkətləri həyata keçirib. Bu zaman onların hədəfi həm də mülki şəxslər, o cümlədən uşaqlar olub. 2011-ci ildə Ağdamda 9 yaşlı Fariz Bədəlovun, Tovuzda 13 yaşlı Aygün Şahmalıyevanın, 2017-ci ildə Füzulidə 2 yaşlı Zəhra Quliyevanın və nənəsi Sahibə Allahverdiyevanın, bu ilin iyulunda Tovuzun Ağdam kəndinin sakini, 1944-cü il təvəllüdlü Əziz Əzizovun qətlə yetirilməsi göstərir ki, terror, xüsusən mülki insanların, körpələrin və yaşlıların qətlə yetirilməsi Ermənistanın dövlət siyasətidir.

Cəbhənin Goranboy rayonu istiqamətində baş verən hadisə Ermənistanın Tovuzda aldığı zərbədən sonra Azərbaycana qarşı etdiyi növbəti uğursuz təxribat cəhdidir. Bu hadisə həm də düşmən tərəfindən Tovuz məğlubiyyətinin etirafıdır. Sabotaj, diversiya və terror məqsədi daşıyan bu təxribatın hədəfi onlara ağır zərbə vuran Azərbaycan Silahlı Qüvvələrinin hərbi hissələrinin kazarmaları və hərbçiləri olub. Lakin bu dəfə də düşmənin təxribatı öz başında çatladı və nəinki itki verərək geri qaçmağa məcbur oldular, hətta komandirlərini qəhrəman hərbçilərimiz ələ keçirdilər.

Ermənistan tərəfi bu faktı nə qədər təkzib etməyə çalışsa da, komandiri əsir götürülən diversiya qrupunda itkilərin olması qaçılmazdır. Düşmənin ölkənin 2016-cı ilin aprel, 2020-ci ilin Tovuz döyüşlərində olduğu kimi, yenə də ölən və yaralananlar barədə məlumatı gizlətməyə cəhd göstərməsi artıq təəccüb doğurmur.

Hazırda sosial şəbəkələrin erməni seqmentində Azərbaycan Ordusu tərəfindən saxlanılmış Q.Alaverdyanın dəyişdirilməsi ilə bağlı təşəbbüslər irəli sürülür. Adətən düşmən xüsusi tapşırıqlar yerinə yetirən hərbçiləri və ya mülki vətəndaşları üçün bu qədər canfəşanlıq etmir. Bu mənada erməni tərəfinin dəyişdirilmə təklifləri əsir götürülmüş diversantın onlar üçün kifayət qədər əhəmiyyətli şəxs olduğunu aydın göstərir. Ermənistan Müdafiə Nazirliyi adəti üzrə saxlanılan şəxsin statusunu azaltmaq üçün heç bir açıqlama verməyib.

Bu arada Ermənistanın ombudsmanı A.Tatoyanın fikirləri kifayət qədər istehza doğurur. Onun sözlərinə görə, yayılan videolar tutulan kəşfiyyatçının hüquqlarının pozulduğunu göstərir. Q.Alaverdyan hərbçidir və barəsində Azərbaycan dövləti tərəfindən müvafiq ölçülər götürüləcək. A.Tatoyan isə bu barədə danışmaqdansa, Ermənistanın Cenevrə Konvensiyasının bütün tələblərini kobud şəkildə pozaraq mülki azərbaycanlı şəxsləri - Dilqəm Əsgərov və Şahbaz Quliyevi hələ də əsirlikdə saxlamasını və onlara işgəncələr verilməsini yadına salsa, daha yaxşı olar.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Nərimanov rayon prokurorunun köməkçisi prokurorluq orqanlarından xaric edilib

Bəzi sosial şəbəkə istifadəçiləri tərəfindən Bakı şəhəri Nərimanov rayon prokurorunun köməkçisi Həsənov Əsgər Novruz oğlunun prokurorluq işçisinin adına yaraşmayan hərəkətlərə yol verməsi ilə bağlı informasiyalar paylaşılıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bununla bağlı Baş Prokurorluğun Xidməti araşdırmalar idarəsi tərəfindən müvafiq yoxlama aparılıb.

Toplanmış materiallar Baş Prokurorluğun “İşin Təşkili Qaydaları” əsasında yeni yaradılmış İntizam Komissiyasına təqdim olunub.

İntizam Komissiyasında xidməti yoxlama materiallarına baxılaraq Əsgər Həsənovun “Azərbaycan Respublikası Prokurorluğu İşçilərinin Etik Davranış Kodeksi”nin tələblərini pozaraq prokurorluq orqanlarında formalaşdırılmış nizam-intizam qaydalarının tələblərinə riayət etməməsi, o cümlədən eyni xarakterli pozuntularla əlaqədar Baş Prokurorluq üzrə əvvəllər verilmiş müvafiq əmrlərdən nəticə çıxarmaması müəyyən edildiyindən onun intizam məsuliyyətinə cəlb olunması ilə bağlı Baş prokurora təqdimatla müraciət olunub.

Baş prokuror Kamran Əliyevin 2020-ci il 26 avqust tarixli əmri ilə Əsgər Həsənov rütbədən məhrum olunmaqla prokurorluq orqanlarından xaric edilib.


## Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti Şəki Acınohur Qış Otlaqlarının Su Təminatı Sistemləri İstismarı İdarəsi 2020-ci il üçün əsaslı təmir işlərinə tələb olunan mal-materialların satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti 31.12.2020-ci il tarixə kimidir.

İddiaçılar tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət edə bilərlər. Əlaqələndirici şəxs: Musayev Etiqad Etibar oğlu.

Ünvan: Şəki şəhəri, Bağbanlar küçəsi, 59
E-mail: **acinohur93@mail.ru**
Tel: (024) 244-88-90

Tender 1 (bir) LOT üzrə keçiriləcək.

**LOT 1- Əsaslı təmir işlərində istifadə ediləcək tikinti materiallarının satın alınması**

Maraqlananlar tenderin əsas şərtlər toplusunu (əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba 120 (bir yüz iyirmi) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər.

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Bank rekvizitləri:**
**Acınohur Qış Otlaqlarının Su Təminatı Sistemləri İstismarı İdarəsi**
**H/H: AZ02CTRE00000000000002350104**
**VÖEN: 3000178451**
**AZ5500, Şəki şəhəri, Bağbanlar küçəsi, 59**
**Tel.: (024) 244-88-90**
**E-mail: acinohur93@mail.ru / acinohurqostsii@mst.gov.az**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN: 1401555071**
**KOD: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Büdcə təsnifat kodu: 142330**
**Büdcə səviyyə kodu: 7**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

*1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
*2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 22 (iyirmi iki) bank günü qüvvədə olmalıdır);*
*3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədəolma müddətindən azı 22 (iyirmi iki) bank günü çox olmalıdır);*
*4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*
*4.1. Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
*4.2. Fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*4.3. Maliyyə vəziyyəti haqqında bank arayışı;*
*4.4. Son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmamasına dair arayış;*
*4.5. İddiaçının nizamnaməsi;*
*4.6. Dövlət reyestrindən çıxarış (qeydiyyatdan keçdiyi ölkə);*
*4.7. İddiaçının rekvizitləri.*
*5. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **16.09.2020-ci il saat 15:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **24.09.2020-ci il saat 15:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifi zərfləri **25.09.2020-ci il saat 15:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi Publik Hüquqi Şəxsi

### *açıq tenderə dəvət edir*

- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi Publik Hüquqi Şəxsi üçün reabilitasiya mərkəzlərinin məlumat sistemi proqram təminatının satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 150 (bir yüz əlli) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi Publik Hüquqi Şəxsi**
**VÖEN: 1003853391**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK: CTREAZ22**
**H/HESABI: AZ41CTRE00000000000002947601**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri - notarial qaydada təsdiq olunmuş;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış - 26.08.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışları qəbul ediləcəkdir;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzər alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti - 2019-cu il üzrə maliyyə hesabatının surəti təqdim olunmalı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı - 26.08.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir;*
- *peşəkar işçi qüvvəsinin olması (ən azı 3 nəfər ixtisaslı (peşəkar) işçinin olması barədə təsdiqedici sənədlər təqdim olunmalıdır) (CV-lər əlavə olunmaqla);*
- *bənzər işlərdə təcrübənin olması (ən azı 1 (bir) layihə üzrə iş təcrübəsi olmalıdır). Müqavilələr təqdim olunmalıdır;*
- *texniki və maliyyə imkanlarının olması (təsdiqedici sənədlər təqdim olunmalıdır);*
- *digər qurumların və nazirliyin informasiya sistemləri ilə işləməsi üçün “fərdi məlumatlarla işləmə” lisenziyasının olması;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **16.09.2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **24.09.2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **25.09.2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

Tender 2 LOT üzrə keçirilir:

**LOT 1 - Printer, skaner və surətçıxaran aparatların təmiri, ehtiyat hissələrinin yenisi ilə əvəz olunması, katriclərin dolumu xidmətlərinin satın alınması.**

**LOT 2 - “Bakı Telefon Rabitəsi” MMC-nin rabitə xidməti mərkəzlərində 2020-ci il ərzində xətt təsərrüfatında GPON layihəsinin tətbiqi ilə əlaqədar mal-materialların satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər
**LOT 1 üzrə - 150 (bir yüz əlli ) manat (ƏDV daxil)**
**LOT 2 üzrə - 100 (bir yüz) manat (ƏDV daxil)**
iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına “ASAN ödəniş” sistemi ilə ödəniş etdikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.I.F.T: AZPOAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **18 sentyabr 2020-ci il saat 17:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*9. İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **28 sentyabr 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **29 sentyabr 2020-ci il saat 11:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada **etender@gov.az** dövlət satınalmalarının vahid internet Portalında aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Azərpoçt” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən “Azərbaycan” qəzetinin 14.03.2020-ci il tarixli sayında dərc edilmiş LOT 2: “Posterminalların satın alınması” prosedurunun qalibi “NBA TECHNİLOGİES İNTERNATİONAL” MMC müəyyən edilmişdir.

“Azərpoçt” MMC və “NBA TECHNİLOGİES İNTERNATİONAL” MMC arasında 25.08.2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# "Azercell"in Müştəri Xidmətləri və Səyyar Müştəri Xidmətləri işini fasiləsiz davam etdirir

## Bu ilin 7 ayında Bakı və bölgələrdə 400 minə yaxın abunəçiyə xidmət göstərib

**COVID-19 pandemiyası ilə əlaqədar karantin rejiminin tətbiqi dövründə də "Azercell Telekom" MMC abunəçilərinə ofislərdə və səyyar şəkildə fasiləsiz xidmət göstərib.**



Ağır və gərgin iş rejiminə baxmayaraq, şirkətin Müştəri Xidmət Mərkəzləri həm müştərilərin, həm də əməkdaşların səhhətinin qorunması məqsədilə lazımi qoruyucu tədbirlər görərək maksimal təhlükəsiz şəraitdə öz fəaliyyətini davam etdirib.

"Azercell" Müştəri Xidmətləri tərəfindən bu ilin ilk 7 ayında xidmət göstərilən müştərilərin sayı Bakıda 220000-dən artıq, regionlarda isə 180000-ə yaxın olub.

Ölkədə tətbiq olunan qabaqlayıcı tədbirləri nəzərə alaraq, "Azercell" öz abunəçilərinə ev şəraitindən ayrılmaması və kütləvi insan axınının mövcud olduğu yerlərə getməməsi üçün alternativ xidmət kanalları təqdim edib. Belə ki, pandemiya dönəmində "Azercell"in Mobil Müştəri Xidmətləri tərəfindən abunəçinin istəyinə uyğun olaraq ona birbaşa yaşadığı ünvanda xidmət göstərilib. 5 ay ərzində (1 mart-31 iyul 2020) "Azercell" Mobil Müştəri Xidmət Mərkəzinə 700-ə yaxın müraciət daxil olub. Onlardan 300-dən çoxunu 65 yaşdan yuxarı olan abunəçilər təşkil edib ki, bu kateqoriyadan olan vətəndaşlara bütün ölkə boyu "Azercell" tərəfindən pulsuz xidmət göstərilib.

Qeyd edək ki, sərt karantin rejiminin tətbiq olunduğu müddətdə "Azercell" Müştəri Xidmət ofisləri xüsusi rejimdə işlədiklərindən abunəçilərin məsafəli qalması və daha təhlükəsiz şəraitdə xidmət göstərilməsi üçün bəzi hallarda elektron növbə tətbiq olunmayıb. Buna görə həmin dövrdə Müştəri Xidmət Mərkəzlərində qəbul edilən və xidmət göstərilən real abunəçi sayı qeyd olunandan qat-qat çoxdur.

"Azercell"in Bakı və bölgələrdə çalışan Müştəri Xidmətləri Mərkəzlərində pandemiyanın ilk günlərindən bu günə qədər zəruri tədbirlər görülür. Xidmət işçiləri və müştərilərin istifadəsi üçün içində antiseptik gel olan dozatorlar quraşdırılıb. Yalnız Müştəri Xidmət Mərkəzlərində deyil, ümumiyyətlə, "Azercell"ə məxsus olan ofislərdə mütəmadi olaraq dezinfeksiya işləri aparılır, ofislərə girişdə hərarət kontaktsız rəqəmsal termometrlə ölçülür. Müştərilərlə təmasda olan əməkdaşlara, səyyar xidmət də daxil olmaqla, qoruyucu maskalar və əlcəklər təqdim edilir.

COVID-19 virusunun yayılmasının qarşısının alınması, əməkdaşların və müştərilərin sağlamlığının qorunması məqsədilə bir sıra Müştəri Xidmətləri (Q. Qarayev pr. 81, B. Bağırova 2, H.Z. Tağıyev, 26A ünvanlarında yerləşən) ofislərində masaüstü şüşə arakəsmələr qoyulub. B. Bağırova 2 ünvanında yerləşən xidmət mərkəzinin önündə isə küçədə növbə gözləyən abunəçiləri gündən qorumaq üçün tent quraşdırılıb.

"Azercell Telekom" hər bir şəraitdə müştərilərinə ən yüksək səviyyədə xidmət göstərməyə hazırdır. Lakin abunəçilərin sağlamlığının qorunması məqsədilə distant xidmət kanallarına - "Azercell"in çoxfunksional "Kabinetim" tətbiqindən və Onlayn Müştəri Xidmətlərindən - yararlanmaq, yalnız zəruri hallarda Müştəri Xidmət Mərkəzlərinə müraciət etməsi tövsiyə olunur.

## "Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu" AZPROMO-nun və "Invest in Azerbaijan" elektron səhifələrinin, həmçinin mobil tətbiqlərinin hazırlanması ilə bağlı görüləcək işlərin yerinə yetirilməsi üçün göstərilən xidmətlərinin satın alınması ilə əlaqədar *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

"Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu" tərəfindən AZPROMO-nun və "Invest in Azerbaijan" elektron səhifələrinin, həmçinin mobil tətbiqlərinin hazırlanması ilə bağlı görüləcək işlərin yerinə yetirilməsi üçün göstərilən xidmətlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı:**

**LOT 1: 200 manat**

**H/h: AZ54CTRE00000000000002098326**
**VÖEN: 1700202161**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**Bankın VÖEN-i: 1401555071**
**Bankın kodu: 210005**
**SWİFT: CTREAZ22**
**M/h: AZ41NABZ01360100000000003944**
**Büdcə səviyyəsinin kodu: F7**
**Büdcə təsnifatının kodu: 142330**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **11 sentyabr 2020-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini **22 sentyabr 2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **25 sentyabr 2020-ci il saat 15:00-da** açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 01, 27 iyul və 15 avqust 2020-ci il tarixli nömrələrində "Azərsu" ASC daxili vəsaiti hesabına nəqliyyat vasitələri üçün turbokompressorların təmiri işinin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 03 sentyabr 2020-ci il saat 18:00-a, təkliflərin açılışı isə 04 sentyabr 2020-ci il saat 18:00-a dəyişdirilmişdir. Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarəolunması departamentinin satınalmaların təşkili şöbəsinin mühəndisi Ağaəli Mirzəyev (agali.mirzeyev@azersu.az (+99412) 431 47 67 (2246).

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 24 iyun, 18 iyul və 28 iyul 2020-ci il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına "Azərsu" ASC-nin Nəqliyyat və Xüsusi Texnika İdarəsinin balansında olan texnikaların yüksək təzyiqli yanacaq nasosunun və yanacaq püskürücüsünün təmiri işlərinin satın alınması ilə əlaqədar dərc olunmuş tenderdə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunun 27-ci və 36-ci maddəsinə əsasən formal tələblərə uyğunsuzluq, tender təklifinin təminatının uyğunsuzluğu və iddiaçının təklifinin qiyməti ehtimal olunan qiymətdən yüksək olduğu üçün kənarlaşdırılmanı nəzərə alaraq tenderin nəticələri ləğv edilmişdir.

***Tender komissiyası***


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

***qəzetinə abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*4 aylıq*
**41,60 (qırx bir manat altmış qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*1 aylıq*
**10,40 (on manat qırx qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 07 sentyabr 2020-ci il saat 15:00-da keçirilməsi nəzərdə tutulan Müxtəlif növ təsərrüfat mallarının satın alınması üzrə açıq tenderin vaxtı 25 sentyabr 2020-ci il saat 15:00-a dəyişdirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 16 sentyabr 2020-ci il saat 15:00-a qədər, tender təklifi və bank təminatını isə 24 sentyabr 2020-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 26.08.2020-ci il tarixdə keçirilməsi nəzərdə tutulan "Bakı Metropoliteni" QSC üçün yaxma və yapışdırıcı malların satın alınması üzrə iddiaçıların sayı 3(üç)-dən az olduğuna görə tender baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Etender.gov.az Portalında 11.06.2020-ci il tarixdə elan edilmiş GPON layihəsinin davam edilməsini və mövcud şəbəkənin baxım işlərinin görülməsini təmin etmək məqsədilə tələb olunan mal-materialların satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi "TOUCHESS" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "TOUCHESS" MMC arasında 21.08.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Etender.gov.az Portalında 01.06.2020-ci il tarixdə elan edilmiş salon və split tipli kondisionerlərə texniki qulluq, ehtiyat hissələrinin dəyişdirilməsi və təmiri xidmətlərinin satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi "KLİMAT.CO" müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "KLİMAT.CO" arasında 21.08.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Etender.gov.az Portalında 03.07.2020-ci il tarixdə elan edilmiş nəqliyyat vasitələri üçün akkumulyatorların satın alınması üzrə kotirovka üsulu ilə keçirilmiş müsabiqənin qalibi "AKTİV QRUP" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "AKTİV QRUP" MMC arasında 21.08.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetində 19 avqust 2020-ci il tarixdə elektrik təsərrüfat mallarının satın alınması ilə əlaqədar dərc olunmuş açıq tenderin tarixlərində dəyişiklik edilmişdir. Tələb olunan sənədlərin təqdim olunma tarixi və vaxtı 09.09.2020-ci il saat 11:00-a, müsabiqənin bitmə tarixi və vaxtı 17.09.2020-ci il saat 17:00-a, zərflərin açılış tarixi və vaxtı isə 18.09.2020-ci il saat 11:00-a dəyişdirilmişdir.

***Tender komissiyası***


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7295
Sifariş 1981
Qiyməti 40 qəpik